Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 24 (8047) CÜMƏ AXŞAMI, 31 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

◆ Ön cəbhədən reportaj



## Azərbaycan əsgəri ən hündür səngərdən bəyan etdi:

# "Qarabağı azad etməyə tam hazırıq!"

**..Yolumuz yenə dağlaradır. Uzaqdan əzəməti ilə göz oxşayan başı qarlı dağlara yaxınlaşdıqca gözlərimiz önündə əsrarəngiz mənzərə yaranır.**

**Hərbi təyinatlı avtomobil buz bağlamış çətin və daşlı-kəsəkli dolanbac yollarla yüksəkliyə doğru qalxır, bizi təbiətin ən ecazkar məqamına çatdırır... Və elə burada hava da, şərait də, mühit də kəskin dəyişir, yolun sonu gəlir...**

**Bundan sonra piyadayıq. Ağ örpəyə bürünüb hər tərəf... Qarın üzərində cığır salmış ləpirlər bir qədər də yüksəkliyə doğru qalxmağımıza yardımçı olur...**

**Artıq zirvədəyik... İrəli getmək isə qeyri-mümkündür, çünki yolumuz səngərə dayanır. Məğrur Azərbaycan əsgərinin qorxu bilmədən, soyuqda da, istidə də, gecə də, gündüz də sinəsini sipər etdiyi səngərə...**

**Buradan belə isə söz silahındır...**



### Ən çətin relyefdə nümunəvi xidmət

Ən hündürlükdə yerləşən cəbhə xəttindəyik. Zabit Loğman Xanlarov deyir ki, qışda demək olar ki, hər gün axşam qar yağır. Amma nə qədər yağsa da, hərbçilərimiz hər zaman ayıq-sayıq xidmətlərini davam etdirirlər. Azərbaycan Ordusunun bölmələri qoşunların təmas xəttinin bütün istiqamətlərində olduğu kimi, burada da şərəflə xidmət edirlər. Coğrafi baxımdan çətin relyefə malik olan bu ərazilərdə xidmət edən hərbçilər vaxtaşırı düşmən təxribatlarının qarşısını alırlar. Əraziyə tam nəzarət üstünlüyü Azərbaycan Ordusuna məxsusdur.

Qış fəslində bu yerlərdə hava şəraiti çox sərt olduğundan 3 ay öncədən mövsümə hazırlıq işləri tamamlanıb. Bölmələr fəsil boyu yetəcək qədər xüsusi geyim, ərzaq və yanacaq materialları ilə təmin edilib. Bir sözlə, Azərbaycan əsgəri ən əlverişsiz hava şəraitində belə, döyüş əmrini yerinə yetirmək üçün istənilən təminat-təchizata malikdir.

*Ardı 5-ci səh.*

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib



Yanvarın 29-da axşam ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Prezidentdən şəhid ailələri ilə bağlı növbəti mühüm addım

### Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

#### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq şəhid ailəsinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilsin.
2. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1040; 2010, № 9, maddə 771; 2011, № 12, maddə 1139; 2013, № 8, maddə 896; 2016, № 1, maddə 64; 2018, № 5, maddə 936) 1-ci hissəsində "242 (iki yüz qırx iki)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2019-cu il*

## Azərbaycanda korrupsiyaya qarşı mübarizə həm də islahatlar yolu ilə aparılır

Məlum olduğu kimi, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev nəzərdə tutulan bütün vəzifələrin icra olunacağını bildirmiş, islahatların bu il də davam etdiriləcəyini, o cümlədən korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndiriləcəyini vurğulamışdır: "Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaqdır. Bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Yəni, tam sağlamlaşdırma prosesi gedir və artıq keçən ilin timsalında biz gözəl nəticələri görə bilmişik".

Dövlət başçısının korrupsiya ilə mübarizədən ətraflı, açıq və sərt danışmasını ötəri toxunulan mövzu kimi yox, idarəçilik sisteminin bütün istiqamətlərində aparılan dərin islahatların qanunauyğun davamı kimi qiymətləndirmək lazımdır. Məhz bu istiqamətdə atılan ciddi addımlar, o cümlədən vergi və gömrük sahələrində aparılan islahatlar dövlət büdcəsinə daxilolmaları böyük həcmdə artırmağa imkan vermişdir. Bu da sosial sahəyə, infrastruktur layihələrinin icrasına əlavə vəsaitlər ayrılmasına şərait yaratmışdır. Ölkə üçün xüsusi əhəmiyyət daşıyan bu qurumların fəaliyyəti islahatlar çərçivəsində zamanın tələbinə uyğun tənzimlənmiş, şəffaflıq, dürüstlük müasir meyarlar səviyyəsində nizamlanmışdır. Bu, ilk növbədə, Azərbaycan Prezidentinin dövlətimizin iqtisadi qüdrətini artırmağa hesablanmış islahatların aparılmasında qətiyyət nümayiş etdirməsi sayəsində mümkün olmuşdur.

*Ardı 4-cü səh.*

## 31 elektrik stansiyası, 15 min kilometr yol, 3272 məktəb binası, 4 böyük su anbarı...

### Bunlar son 15 ildə regional inkişaf proqramları çərçivəsində bölgələrdə görülən işlərin kiçik statistikasıdır



Məlum olduğu kimi, İlham Əliyevin Prezident kimi ilk imzaladığı sənədlərdən biri də "2004-2009-cu illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" olmuşdur.

Ötən illərin təcrübəsi göstərdi ki, dövlət başçısı tərəfindən bu sənədin imzalanması vaxtında atılmış düzgün addım idi. Qeyd edək ki, təkcə I Dövlət Proqramının icrası nəticəsində bölgələrdə yüzlərlə sənaye, emal, kənd təsərrüfatı, turizm və xidmət obyektləri istifadəyə verildi, regionların sosial-iqtisadi siması dəyişdi, əhalinin məşğulluq probleminin həllində mühüm addımlar atıldı.

Ümumiyyətlə, həmin tarixdən keçən 15 il ərzində ölkəmiz sosial-iqtisadi, eləcə də siyasi arenada böyük uğurlar qazanmışdır. Bu gün Azərbaycan beynəlxalq məsələlərdə rəyi nəzərə alınan ölkədir, bir çox regional məsələlərdə bizimlə hesablaşırlar. Sözsüz ki, ölkəmizin bu səviyyəyə çatmasında regional dövlət proqramlarının uğurla icra edilərək sosial-iqtisadi sahələrdə yüksək nailiyyətlər qazanılmasının da böyük rolu var.

Prezident İlham Əliyev yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bu dövlət proqramlarının qəbulunun əhəmiyyətini vurğulayaraq demişdir: "Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edib... Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni, xarici investisiyalar üçün Azərbaycan çox cəlbedici ölkədir".

Statistik rəqəmlərə diqqət yetirdikdə də Prezidentin dediklərini aydın görmək olur.

*Ardı 7-ci səh.*



## Böyük təsəlli

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə bu günlərdə keçirilən növbəti görüşü bir daha sübut etdi ki, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşı dayanır. Xalqın bir hissəsini də işğalçı Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində yurd-vuvasından didərgin düşmüş insanlar, müharibə əlilləri, şəhid ailələrinin üzvləri təşkil edir ki, onlar da daim dövlətin diqqət mərkəzindədir. Bu insanlar davamlı olaraq dövlət başçısı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın böyük qayğısını, hərtərfli dəstəyini hiss edirlər.

Bəli, bəlkə də belə bir ikinci dövlət tapmaq çətin olar ki, orada vətəndaşa, ağır vəziyyətdə yaşayan, doğmasını-yaxınını itirən insana bu qədər diqqət və qayğı göstərilsin.

*Ardı 4-cü səh.*

# Prezident İlham Əliyev görkəmli alim Toğrul Bağırovun vəfatı ilə əlaqədar başsağlığı verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nobel İrsi Fondunun sədri, BMT-nin qlobal enerji üzrə aparıcı eksperti, siyasi elmlər doktoru, professor Toğrul Adil oğlu Bağırovun vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

# Azərbaycanlı alim Toğrul Bağırov enerji diplomatiyası sahəsində görkəmli mütəxəssis idi

Bakı Nobel İrsi Fondunun sədri, Moskva beynəlxalq neft klubunun icraçı vitse-prezidenti, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü, Amerika-Rusiya İşgüzar Şurasının daimi üzvü, siyasi elmlər doktoru, professor Toğrul Bağırov 65 yaşında vəfat edib.

AZƏRTAC xəbər verir ki, Toğrul Bağırov 1954-cü ildə Bakıda anadan olub. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq münasibətlər fakültəsini bitirdikdən sonra keçmiş SSRİ Xarici İşlər Nazirliyində, SSRİ-nin ABŞ-dakı səfirliyində, BMT-nin Cenevrə nümayəndəliyində işləyib. Daha sonra intellektual biznes sahəsinə keçib, beynəlxalq konsaltinq şirkətinə başçılıq edib. 1994-cü ildə Rusiyanın yanacaq və energetika nazirinin xüsusi müşaviri, "Qazprom", "LUKoil", "Transneft", "Tatneft"in və digər enerji şirkətlərinin məsləhətçisi vəzifələrində çalışıb.

Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü olan T.Bağırov "Moskva neft klubu" fondunun icraçı vitse-prezidenti, Amerika-Rusiya İşgüzar Şurasının daimi üzvü idi. Azərbaycanda Nobel qardaşları irsinin bərpa edilməsi sahəsindəki xidmətlərinə görə İsveç Kralı XVI Karl Qustav görkəmli alimi birinci dərəcəli "Qütb Ulduzu" ordeni ilə təltif edib. Həmçinin T.Bağırov Fransanın "Fəxri legion" ordeni, Rusiyanın ikinci dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" medalı ilə də mükafatlandırılıb.

"1990-cı illərdə Rusiya-Amerika münasibətləri kontekstində Rusiyanın neft-qaz sektorunda islahatların beynəlxalq əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edən alim "Mejdunarodnaya jizn", "Amerika", "Neft Rossii" jurnallarının daimi müəlliflərindən biri, "Böyük səkkizlik" ölkələrinin energetika nazirlərinin birinci görüşü barədə külliyyatın 1988-ci il nəşri üzrə proqram komitəsinin əlaqələndiricisi olub. O, Rusiya Dövlət Duması və ABŞ Konqresi arasında dialoqa dəstək ictimai qrupunun üzvü, energetika üzrə Duma-Konqres böyük qrupunun yaradılmasının təşəbbüskarı idi. Alimin dərc olunmuş elmi işləri arasında "Rusiya və OPEC ölkələri - əməkdaşlığın perspektivləri", "Rusiyanın xarici siyasətində neft və qaz", "1990-cı illərdə Rusiyanın neftqaz sektorunda iqtisadi islahatların beynəlxalq əhəmiyyəti" mövzusunda monoqrafiyaları mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

Ölkələr arasında enerji əməkdaşlığının qurulması və inkişaf etdirilməsində Toğrul Bağırov söz və nüfuz sahiblərindən biri idi. Onun maraqlar balansına hədəflənmiş bu missiyası ilə siyasətçilər də, iş adamları da razılaşır, təşəbbüs və təkliflərini qəbul edir, ondan həmişə məsləhətlər alırdılar. Ötən əsrin 90-cı illərinin ortalarında "Əsrin müqaviləsi" razılaşdırılarkən T.Bağırovun Azərbaycan ilə Rusiya arasında mühüm vasitəçilik xidmətləri olub.

# "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Əlat azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295; 2017, № 11, maddə 1959; 2018, № 7, I kitab, maddə 1407; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli və 30 noyabr tarixli 1365-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 2.3-cü maddə əlavə edilsin:

"2.3. Ələt azad iqtisadi zonasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün ticarət-iqtisadi Əməkdaşlıq Proqramının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün ticarət-iqtisadi Əməkdaşlıq Proqramı təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2019-cu il*

# "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 364) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Ələt azad iqtisadi zonasında atmosfer havasının mühafizəsi ilə bağlı məsələlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 471; 2004, № 2, maddə 57; 2006, № 12, maddə 1005; 2007, № 12, maddə 1211; 2013, № 3, maddə 208) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

"3.2. Ələt azad iqtisadi zonasında ekoloji təhlükəsizlik sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7, I kitab, maddə 1398) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Ələt azad iqtisadi zonasında ətraf mühitin mühafizəsi sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 4.** "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 606; 2002, № 4, I kitab, maddə 165; 2007, № 7, maddə 709, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2012, № 7, maddə 648; 2017, № 6, maddə 1017; 2018, № 2, maddə 144) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

"3.2. Ələt azad iqtisadi zonasında istehsalat və məişət tullantılarının idarə olunması sahəsində yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 5.** "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

"3.2. Ələt azad iqtisadi zonasında yerin təkindən istifadə sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 6.** Azərbaycan Respublikasının Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135; 1999, № 8, maddə 476; 2002, № 5, maddə 237; 2003, № 1, maddə 10; 2004, № 2, maddə 57; 2006, № 11, maddə 923; 2007, №5, maddə 436, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2015, № 2, maddə 72, № 4, maddə 357; 2017, № 9, maddə 1631) 2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Ələt azad iqtisadi zonasında su münasibətləri "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 11-ci, 13-cü, 17-ci və 21-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12, I kitab, maddə 2217; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7, I kitab, maddələr 1435, 1437, 1438, № 10, maddə 1963; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD, 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 1.4-cü maddə əlavə edilsin:

"1.4. Ələt azad iqtisadi zonasında inzibati məsuliyyətə səbəb olan əməllər (hərəkət və ya hərəkətsizlik) və bu əməllərə görə inzibati xəta törətmiş şəxsin tənbeh edilməsi "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7, I kitab, maddə 1440) aşağıdakı məzmunda 1.3-cü maddə əlavə edilsin:

"1.3. Ələt azad iqtisadi zonasında inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə baxılması "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2, II kitab, maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12, I kitab, maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 7, I kitab, maddə 1434) aşağıdakı məzmunda 4.5-ci maddə əlavə edilsin:

"4.5. Ələt azad iqtisadi zonasında miqrasiya sahəsində yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 4.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1295-VQD və 1297-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 2.5-1-ci maddə əlavə edilsin:

"2.5-1. Ələt azad iqtisadi zonasında mülki münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 5.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD və 1315-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 1.6-cı maddə əlavə edilsin:

"1.6. Ələt azad iqtisadi zonasında mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının aparılması zamanı "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınır. ".

**Maddə 6.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Ələt azad iqtisadi zonasında şəhərsalma və tikinti fəaliyyəti sahəsində yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 13-cü, 15-ci, 26-cı və 27-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950; 2014, № 10, maddə 1161; 2015, № 11, maddə 1261; 2016, № 3, maddə 412, № 4, maddə 642, № 12, maddə 2002; 2017, № 11, maddə 1952, № 12, I kitab, maddə 2225; 2018, № 7, I kitab, maddə 1394) aşağıdakı məzmunda 2.3-1-ci maddə əlavə edilsin:

"2.3-1. Ələt azad iqtisadi zonasında investisiya fondları sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12, I kitab, maddə 2222; 2018, № 5, maddə 893, № 7, I kitab, maddə 1395) aşağıdakı məzmunda 2.3-cü maddə əlavə edilsin:

"2.3. Ələt azad iqtisadi zonasında qiymətli kağızlar bazarı sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 309; 2009, № 7, maddə 517; 2016, № 3, maddə 422; 2017, № 2, maddə 144; 2018, № 2, maddə 154; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1299-VQD nömrəli Qanunu) 1-ci maddəsinin mətni 1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Ələt azad iqtisadi zonasında lotereyalar sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 4.** "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanunu) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Ələt azad iqtisadi zonasında ipoteka sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 5.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12, I kitab, maddə 2221; 2018, № 7, I kitab, maddə 1392) aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

"2.4. Ələt azad iqtisadi zonasında sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 6.** "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 399; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692, № 10, maddə 872; 2006, № 12, maddə 1007; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2011, № 2, maddə 71; 2013, № 12, maddə 1491; 2015, № 2, maddə 73; 2016, № 3, maddə 415; 2017, № 5, maddə 686) 1-ci maddəsinin mətni 1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Ələt azad iqtisadi zonasında hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib

Yanvarın 30-da Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a partiyanın mətbuat xidmətindən məlumat verilib.

İclasda YAP İdarə Heyətinin 2018-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurası tərkibi haqqında 2018-ci ilə dair illik statistik hesabat, partiyanın 2018-ci il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2019-cu ilin birinci yarımilliyinə dair iş planı müzakirə olunaraq qəbul edilib.

İdarə Heyətinin iclasında 2018-ci ildə Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişafın davam etdiyi bildirilib. Vurğulanıb ki, 2018-ci il müstəqil Azərbaycanın tarixində ən mühüm siyasi hadisə - Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi olub. Azərbaycanda prezident seçkiləri elan edildikdən dərhal sonra Yeni Azərbaycan Partiyasının növbəti - VI qurultayı keçirilib, Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib.

Yeni Azərbaycan Partiyası bütövlükdə seçki kampaniyasını çox uğurla həyata keçirib, prezidentliyə namizəd İlham Əliyevin təşviqat kampaniyası çərçivəsində ölkənin hər bir yaşayış məntəqəsini əhatə etməklə seçicilərlə möhtəşəm görüşlər keçirilib. 11 aprel tarixi isə Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə inam və dəstəyinin möhtəşəm təntənəsi oldu. Azərbaycan seçicilərinin mütləq əksəriyyəti ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamına - Azərbaycanın dinamik inkişafına və qüdrətli gələcəyinə səs verdi.

Hesabat dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirib, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirib.

Yeni Azərbaycan Partiyası hesabat dövründə beynəlxalq əlaqələrinin daha da şaxələndirilməsi istiqamətində səylərini uğurla davam etdirib. Müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilib, bu istiqamətdə bir sıra mühüm görüşlər keçirilib.

Hesabatda daha sonra qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam edib, bu dövr ərzində 24 min nəfərdən çox yeni üzv qəbul olunub və beləliklə, partiya üzvlərinin sayı 732 min nəfəri keçib. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil edib.

İdarə Heyətinin iclasında YAP-ın ötən ilə dair gəlirləri və xərcləri barədə hesabat da dinlənilib.

# Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi üçün onun hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1403-VQD nömrəli, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İcra haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1404-VQD nömrəli, "Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1405-VQD nömrəli, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1406-VQD nömrəli, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1407-VQD nömrəli, "Antiinhisar fəaliyyəti haqqında", "Auditor xidməti haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1408-VQD nömrəli, "Elektron ticarət haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Haqsız rəqabət haqqında", "Xarici investisiyanın qorunması haqqında" və "İcarə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1409-VQD nömrəli, "İcbari sığortalar haqqında", "İxrac nəzarəti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Kommersiya sirri haqqında" və "Qrant haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1410-VQD nömrəli, "Lisenziyalar və icazələr haqqında", "Müflisləşmə və iflas haqqında", "Mühasibat uçotu haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1411-VQD nömrəli, "Patent haqqında", "Reklam haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1412-VQD nömrəli, "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1413-VQD nömrəli, "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Əmanətlərin tam sığortalanması haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1414-VQD nömrəli, "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Poçt haqqında", "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1415-VQD nömrəli, "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1416-VQD nömrəli, "Torpaq icarəsi haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" və "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1417-VQD nömrəli, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Məşğulluq haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD nömrəli, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Tibbi sığorta haqqında", "Elektron imza və elektron sənəd haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1419-VQD nömrəli qanunlarının qüvvəyə minməsi ilə əlaqədar həmin qanunların tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi barədə", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İcra haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Antiinhisar fəaliyyəti haqqında", "Auditor xidməti haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Elektron ticarət haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Haqsız rəqabət haqqında", "Xarici investisiyanın qorunması haqqında" və "İcarə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "İcbari sığortalar haqqında", "İxrac nəzarəti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Kommersiya sirri haqqında" və "Qrant haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Lisenziyalar və icazələr haqqında", "Müflisləşmə və iflas haqqında", "Mühasibat uçotu haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Patent haqqında", "Reklam haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Əmanətlərin tam sığortalanması haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Poçt haqqında", "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Torpaq icarəsi haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" və "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Məşğulluq haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Tibbi sığorta haqqında", "Elektron imza və elektron sənəd haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanunlara uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanunlara uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncamın 1.1-ci bəndində göstərilən qanunlara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2019-cu il*

# Gömrükçülərin peşə bayramı qeyd edilib

Yanvarın 30-da Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 27-ci ildönümü, gömrük əməkdaşlarının peşə bayramı münasibətilə təntənəli mərasim və Dövlət Gömrük Komitəsinin 2018-ci il ərzindəki fəaliyyətinin yekunlarına həsr olunan kollegiya iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan gömrük orqanlarının Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı inkişaf strategiyasına uyğun inkişaf etdiyini və ölkəmizin mühüm dövlət təsisatlarından birinə çevrilməklə yanaşı, dünya gömrük ailəsində yüksək etibar və etimad qazandığını deyib. Son illər ölkədə həyata keçirilən islahatlar çərçivəsində gömrük orqanlarının da bir sıra yeniliklər tətbiq etdiyini diqqətə çatdıran S.Mehdiyev qeyd edib ki, fiskal, hüquqpozmalara qarşı mübarizə, gömrük nəzarəti, ticarətin asanlaşdırılması və ən əsası, şəffaflığın təmin olunması istiqamətində ciddi nailiyyətlər əldə edilib.

Komitə sədri vurğulayıb ki, gömrük sistemində aparılan struktur və kadr islahatları idarəetmənin təkmilləşdirilməsinə, kadrların peşə hazırlığının artırılmasına, bir sözlə, gömrük işinin müasir dünyanın çağırışlarına uyğun şəkildə yenidən qurulmasına münbit şərait yaradıb: "Prezident İlham Əliyevin tarixi İpək yolu üzərində strateji mövqe tutan ölkəmizin tranzit potensialının gücləndirilməsi, ixrac potensialının artırılması istiqamətində atdığı addımlar gömrük orqanlarının da qarşısında yeni hədəflər müəyyənləşdirib. Artıq ən müasir idarəetmə strukturuna malik Azərbaycan gömrüyü fəaliyyətini nəzarətdən xidmətə doğru dəyişdirərək beynəlxalq ticarətin təhlükəsiz, asan və sürətli şəkildə reallaşdırılması, ən müasir gömrük nəzarət üsul və vasitələrinin tətbiqi istiqamətində mühüm addımlar atır".

Qeyri-neft sektorunun inkişafı, ixrac potensialının artırılması məqsədilə fevralın 1-də tətbiqinə başlanacaq "Yaşıl dəhliz" buraxılış sisteminin ölkəmizdə sahibkarlıq mühitinin yaxşılaşdırılması, vətəndaş-məmur təmasının minimuma endirilməsi, şəffaflığın təmin olunması və könüllü riayət prinsipinin formalaşmasında vacib rol oynayacağını bildirən S.Mehdiyev gömrük orqanlarının bu layihənin icrasını uğurla reallaşdıracağına əminliyini ifadə edib.

Daha sonra kollegiyanın gündəliyindəki məsələlər müzakirə olunub.

Komitə sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov bildirib ki, hesabat ilində, ilk növbədə, çevik idarəetmə sistemi yaradılmaqla Dövlət Gömrük Komitəsinin fəaliyyət istiqamətləri üzrə qarşıda duran vəzifələrin vaxtında və operativ surətdə yerinə yetirilməsinə daha əlverişli şəraitin yaradılması, komitənin struktur bölmələrinin fəaliyyətinin daha səmərəli və düzgün təşkili, idarəçiliyin təkmilləşdirilməsi, eyni və oxşar səlahiyyətlərin daha optimal həcmdə resurs sərf etməklə həyata keçirilməsi və nəticədə gömrük xidmətinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə DGK-nın strukturu təkmilləşdirilərək paralel və bir-birini təkrarlayan struktur bölmələrinin əvəzinə yeni struktur bölmələri, o cümlədən ərazi və ixtisaslaşdırılmış gömrük idarələri yaradılıb.

O qeyd edib ki, 2018-ci ildə dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik olan Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə vergitutma bazasını düzgün müəyyənləşdirməklə büdcəyə 3 milyard 434 milyon manat gömrük ödənişlərinin köçürülməsini təmin edib, ilin əvvəlində nəzərdə tutulan proqnozla müqayisədə 1 milyard 4 milyon manat gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb. 2018-ci ilin iyun ayında illik büdcə proqnozunun dürüstləşməsi zamanı Dövlət Gömrük Komitəsi üçün əlavə olaraq 760 milyon manat büdcə öhdəliyinin müəyyənləşdirilməsini nəzərə alsaq, bütövlükdə 3 milyard 190 milyon manat proqnoza qarşı faktiki olaraq 244 milyon manat gömrük ödənişlərinin dövlət büdcəsinə köçürülməsi təmin edilib.

Digər çıxış edənlər ötən dövr ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə danışıblar.

Bundan başqa, iclasın gündəliyindəki "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Ticarətin Asanlaşdırılması üzrə Konsepsiyası", "Azərbaycan Respublikasında tranzit əməliyyatlarının gömrük tənzimlənməsinin inkişafı Konsepsiyası", "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2019-cu il üçün İş Planı", "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsi haqqında Əsasnamə" və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsi haqqında Əsasnamə" müzakirə edilərək müvafiq qərarlar qəbul olunub.

Həmçinin Dövlət Gömrük Komitəsinin xidmətdə fərqlənən bir qrup əməkdaşına Ümumdünya Gömrük Təşkilatının sertifikatları verilib, eləcə də komitənin xidmətdə fərqlənən bir qrup əməkdaşına fəxri fərmanlar və xüsusi rütbələr verilməsinə dair DGK sədrinin müvafiq əmrlərinin imzalandığı diqqətə çatdırılıb.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

# Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən hissələrində yeni yaşayış kompleksləri istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına əsasən Hərbi Hava Qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyət davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbər heyəti Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən hərbi hissələrinin ərazisində yeni inşa edilmiş yaşayış komplekslərinin açılışında iştirak edib, burada hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olublar.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov ərazidəki əsgər yataqxanalarında, yeməkxanalarda, sinif otaqlarında, tibb məntəqələrində, mətbəxlərdə, qazanxanalarda, anbarlarda, eləcə də digər xidməti və inzibati obyektlərdə olaraq görülən işlərin keyfiyyəti ilə tanış olub.

Nazir hərbi hissələrin silahlanmasında olan döyüş texnikasına baxış keçirib və komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Xarici İşlər Nazirliyində geniş tərkibli kollegiya iclası keçirilib

Yanvarın 30-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində (XİN) geniş tərkibli kollegiya iclası keçirilib.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarovun rəhbərliyi ilə keçirilən iclasda cari ildə Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyinin qeyd olunması ilə bağlı tədbirlər planı, həmçinin bir sıra digər təşkilati işlər və kadr məsələləri müzakirə edilib.

Bundan başqa, iclasda XİN-in yeni təyin edilən idarə rəisləri kollektivə təqdim olunub.

# Moskvanın və bütün Rusiyanın Patriarxı ilə görüş

Yanvarın 30-da Moskvada səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadə Patriarx seçilməsinin 10 illiyi münasibətilə Kirillə Azərbaycan xalqının, Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təbriklərini çatdırıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli məsələsinə Patriarx Kirillin dəstəyini xüsusi vurğulayan A.Paşazadə hazırda dünyada mürəkkəb proseslərin getdiyini bildirərək deyib ki, bu baxımdan, din xadimlərinin üzərinə böyük məsuliyyət düşür. Din xadimləri dövlət rəhbərləri, siyasi və ictimai xadimlərlə birlikdə ekstremizm və terrorizm kimi bəlalara qarşı mübarizə aparmalıdırlar. Təəssüf ki, bəzi din xadimlərinin fəaliyyətində bunun əksini görürük.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən Şeyxülislam Allahşükür Paşazadə dövlətlərimizin başçıları arasında səmimi dostluq əlaqələrinin olduğunu, bunun da din xadimlərinin daha yaxından qarşılıqlı əməkdaşlığına şərait yaratdığını vurğulayıb. O diqqətə çatdırıb ki, Azərbaycanda dövlətin dəstəyi ilə bütün dinlərin azad fəaliyyəti üçün hər bir şərait yaradılıb. Azərbaycanda dövlətin dəstəyi ilə kilsələrin təmir və bərpa olunduğunu, yeni ibadətgahların tikildiyini söyləyən şeyxülislam deyib: "Mən sizdən, bir qardaşım kimi, xahiş edirəm, Moskvada azərbaycanlıların ibadət etmələri üçün məscid tikintisinə yer ayrılsın. Bu, bizim əlaqələrimizin daha da möhkəmlənməsinə kömək edər".



Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə Moskvanın və bütün Rusiyanın Patriarxı Kirilli Azərbaycana səfərə dəvət edib.

Rusiyanın Patriarxı Kirill bildirib ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə ilə hər görüşə böyük əhəmiyyət verir və onun İslam aləmində əlaqələndirici rolunu yüksək qiymətləndirir. O deyib ki, bu görüşlər və əldə edilən razılaşmalar icmalarımız üçün olduqca əhəmiyyətlidir. Patriarx Allahşükür Paşazadənin Rus Pravoslav Kilsəsi ilə münasibətlərin inkişafında və dünyada, eləcə də Azərbaycanda dinlərarası sülhün dəstəklənməsində rolunu qeyd edib. O, Azərbaycanda dinlərarası münasibətlərə və Rus Pravoslav Kilsəsinin nümayəndəliyinə xoş münasibəti xüsusi diqqətə çatdırıb.

Dağlıq Qarabağ münaqişəsinə toxunan Patriarx Kirill ümid etdiyini bildirib ki, bu çətin münaqişənin həll olunacağı vaxt gəlib çatacaq.

Patriarx Azərbaycanda 2017-ci ildə "İslam həmrəyliyi ili"nin yüksək səviyyədə keçdiyini də vurğulayıb.

* * *

Moskvada səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri (QMİ) Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşə Moskvanın Otradnoye rayonunda yerləşən "İnam" məscidinin bağlanması ilə əlaqədar narazılıq edən dindarlar da qatılıblar.

Azərbaycanın Moskvadakı səfirliyində keçirilən görüşü səfir Polad Bülbüloğlu açaraq bildirib ki, Rusiyada da, Azərbaycanda da din dövlətdən ayrıdır. Rusiyada yaşayan azərbaycanlıların əksəriyyəti bu ölkənin vətəndaşlarıdır və Otradnoye rayonundakı "İnam" məscidinin bağlanması məsələsini, əslində, Rusiya dövləti həll etməlidir. "Düşünürəm ki, Azərbaycan dövlətinin, Qafqaz Müsəlmanları İdarəsinin, səfirliyin bu problemə diqqəti məsələnin həllinə kömək edəcək", - deyə diplomat bildirib.

Allahşükür Paşazadə görüşdə çıxış edərək bildirib ki, müstəqilliyini bərpa etməmişdən əvvəl Azərbaycanda cəmi 17 məscid var idi. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra yeni ibadətgahlar tikildi və bu gün ölkəmizdə 2 mindən çox məscid fəaliyyət göstərir. "Mən bir şeyxülislam kimi istərdim ki, Moskvada da azərbaycanlıların ibadətlərini yerinə yetirmələri üçün bir neçə məscid olsun. İndi Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin diqqəti və dəstəyi sayəsində bizim başqa ölkələrdə də Azərbaycan məscidləri açmaq, ibadətgahlarımızı bərpa etmək imkanımız var", - deyə o bildirib.

"İnam" məscidin bağlanmasından xəbərdar olduğunu deyən şeyxülislam qeyd edib ki, Patriarx Kirill ilə görüşdə də bu məsələni qaldırıb: "Xahiş etdim ki, Azərbaycan məscidinin inşa edilməsi üçün bizə yer ayrılsın. Bundan əlavə, mən Moskvanın meri Sergey Sobyaninə də bu məsələ ilə bağlı məktub göndərmişəm".

Qafqaz Müsəlmanları İdarəsinin sədri ümidvar olduğunu bildirib ki, Moskvada Azərbaycan məscidinin açılması məsələsi Rusiya qanunları çərçivəsində həllini tapacaq.

Moskvada fəaliyyət göstərən "Əhli-beyt" İslam Cəmiyyətinin sədri Nizami Baloğlanov bu şəhərdə yaşayan azərbaycanlı dindarların dövlətimizin başçısına ünvanladıqları məktubu şeyxülislama təqdim edib.

# Böyük təsəlli

Əvvəli 1-ci səh.

Yalnız bu faktları xatırlatmaq kifayətdir ki, son illər ərzində məcburi köçkünlər üçün 100-dən çox şəhərcik və qəsəbə salınıb. Təkcə keçən il 5900 məcburi köçkünə mənzillər və fərdi evlər verilib.

Dövlət şəhid ailələrini də bir an belə unutmur. İndiyədək 6650 şəhid ailəsinin dövlət tərəfindən mənzil, ev, 6000-dən çox şəhid ailəsinin isə minik avtomobili ilə təmin edilməsi buna aydın misaldır.

Daha bir önəmli dəstək də keçən il aprelin 11-də keçirilən prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk fərman oldu. “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” fərmana əsasən, qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Artıq ödəmə prosesi də həyata keçirilir. Belə ki, indiyədək 3100 şəhid hərbi qulluqçunun vərəsələri həmin məbləği alıb. Ödənişlər davam edir.

Şəhid ailələri ilə görüş zamanı Prezident İlham Əliyev bu barədə demişdir: “Mənə verilən məlumata görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni, o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq mən bu gün yeni fərman imzaladım”.

Dövlət başçısının yeni fərmanı ilə 19 aprel 2018-ci il tarixli fərmanda dəyişiklik edilib. Bu dəyişikliyə əsasən, Azərbaycanın ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş 2725 şəhidlin, o cümlədən 11 min manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Beləliklə, birdəfəlik ödəmələri alan şəhid vərəsələrinin ümumi sayı 12268 olacaq.

Bütün bunlar təkcə maddi kömək, maliyyə dəstəyi deyil, həm də mənəvi dayaqdır.



Bunlar o deməkdir ki, dövlət daim öz vətəndaşının yanındadır, onu unutmur, dərdinə şərik çıxır. Təsadüfi deyil ki, şəhid ailələrinin görüşdə çıxış edən üzvləri dövlətin, dövlət başçısının bu önəmli addımını, bu humanist hərəkətini yüksək dəyərləndirdilər. Xalqımızın İlham Əliyev kimi vətənini və torpağını sevən belə bir rəhbəri olduğundan qürur duyduqlarını bildirdilər. Birinci xanım Mehriban Əliyevanın onlara daim qayğı göstərməsindən məmnun olduqlarını minnətdar duyğularla vurğuladılar.

Şəhid anası İbadət Əliyeva öz çıxışında belə dedi: “Deyirlər, dərdin kiçiyi, böyüyü olmur. Amma elə deyil, dərdin ən böyüyü Vətən, torpaq, azadlıq dərdidir. Bu dərdin yolunda bizim balalarımız şəhid oldular. Vətən yaşasın deyə, onlar şəhid oldular və düşmənə qaya kimi sipər oldular, qaya kimi dayandılar onların qabağında. Mən inanıram ki, xalqımız çox vətənpərvər, qəhrəman xalqdır. Bu xalqın əli silah tutan hər bir nümayəndəsi şəhidlərin yolunu davam etdirmək üçün bir nəfər kimi vətənimizi qorumağa hazırdır”.

Əzizini, doğmasını itirmiş şəhid ailələrinin üzvlərinin dərdi dərin olsa da, qürur hissləri də böyükdür. Bu hissləri onlara bəxş edən vətən sevgisi, torpaq təəssübkeşliyi, dövlətimizin şəhidlərin ruhuna bəslədiyi ehtiram və onların ailələrinə tükənməyən qayğısıdır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN FEVRAL AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 11 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 18 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 25 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 7 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 4 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 13 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 27 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 6 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 14 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 20 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 7 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 14 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 21 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 5 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 8 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 12 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 19 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 15 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 22 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

**Qəbula yazılma vaxtı:** saat 9:00-dan 18.00-dək
**Qəbul vaxtı:** saat 14:00-dan başlayır
**Qəbul günü qəbula yazılma:** saat 12:00-da dayandırılır.

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38
(012) 510-89-14
(012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Azərbaycanda korrupsiyaya qarşı mübarizə həm də islahatlar yolu ilə aparılır

Əvvəli 1-ci səh.

Korrupsiya ilə bağlı dünyada demək olar ki, bütün dövlətlərin problemləri mövcuddur və bu üzdən statistik rəqəmlər də bir o qədər ürəkaçan deyil. BMT dünyada illik rüşvətin həcminin təxminən bir trilyon dollar olduğunu bildirmişdir. Bundan başqa, dünya iqtisadiyyatı hər il korrupsiya ucbatından 2,6 trilyon dollar itirir. BMT-nin məlumatına görə, inkişaf edən ölkələrdə korrupsiya ilə bağlı itkilər inkişaf məqsədlərinə yönəldilən vəsaitlərdən 10 dəfə artıqdır. Qlobal korrupsiya barometri 2017-ci ildə Asiya-Sakit okeanı hövzəsində yoxsulluq səviyyəsindən aşağı həddə yaşayan insanların 38 faizinin dövlət xidmətlərindən faydalanmaq üçün rüşvət vermək məcburiyyətində qaldıqlarını bildirir. Tədqiqatlar onu da göstərir ki, təhsili aşağı olan gənclərin arasında rüşvətin faizi daha yüksəkdir. Məhz bu reallığın fonunda Azərbaycanda rüşvətin kökünün dövlət müəssisələrində kəsilməsi üçün həyata keçirilən tədbirləri görməmək mümkün deyil.

İdarəçilik sistemində aparılan struktur islahatları, müasir dünya təcrübəsinin ölkəmizdə geniş tətbiqi gizli iqtisadiyyata böyük zərbə vurmağa, təhlükəli meyillərin qarşısını qətiyyətlə almağa imkan yaradır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyir ki, dövlət başçısının apardığı struktur islahatları ölkəmizə “dünyada ən islahatçı” ölkə imicini qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan verir. Lakin Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında uğurları şərh etməkdən daha çox qarşıdakı struktur islahatlarının vacibliyinə toxunmuş, prioritet istiqamətləri təyin etmişdir: “İndi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü”.

İslahatların tətbiqində əsas məqsəd idarəetmə və iqtisadi inkişaf arasında tarazlıq yaratmaq, qarşılıqlı əlaqə və bir-birini tamamlama kimi prinsipləri qorumaq, səmərəliliyin daha da artırılmasına nail olmaq, məhdud resurslardan istifadə etməklə maksimum nəticəyə nail olmaqdır. Yığcam və məqsədyönlü dövlət aparatı özəl sektorun fəaliyyətinə müdaxiləni minimuma endirməklə daha çox bazar tənzimlənməsinə şərait yaradır. Bununla, dövlət və bazar tənzimlənməsinin optimal nisbəti müəyyənləşir ki, bu da özəl sektorun lokomotiv olduğu iqtisadi inkişafı təmin edir.

Bir-birini təkrar edən qurumların ləğv edilərək onların bazasında sayca daha az, lakin daha çevik və daha səmərəlilərinin yaradılması, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, qeyri-neft ixracının genişlənməsi, idxalın əvəzlənməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi struktur islahatlarının məntiqi davamıdır. Bütün bunlar dövlət qurumlarında şəffaf, operativ və resurslara qənaət rejimində fəaliyyət göstərməyə imkan yaradır. “Bir pəncərə” və rəqəmsallaşma kimi prinsiplər də struktur islahatlarının kökündə dayanır.

Struktur islahatlarında “yaxşı idarəetmə” və “açıq hökumət” prinsipləri müasir dünya təcrübəsi ilə harmonik uzlaşır. Davos İqtisadi Forumunun “Qlobal Rəqabətlilik 2019” hesabatında Azərbaycanın 140 ölkə arasında “Dövlət tənzimlənməsinin yükü” alt-indikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yerədək yüksələrək Avstriya, Belçika və Danimarka kimi ölkələri geridə qoyması ölkədə effektiv dövlət idarəetmə aparatının formalaşmasını təsdiq edir.

Nazirlər Kabinetinin son iclasında Prezident İlham Əliyev bütün bunların hansı məqsədə xidmət etdiyini belə açıqlamışdır: “Biz gizli iqtisadiyyata qarşı həm inzibati, həm də institusional yollarla, o cümlədən islahat yolu ilə mübarizə aparırıq və aparacağıq... Gizli iqtisadiyyata qarşı mübarizə metodları kifayət qədər çoxşaxəlidir. Biz onların hamısından istifadə edirik və edəcəyik. Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır. Heç bir qanunsuzluğa yol verilməyəcək və hər kəs nəticə çıxarsın”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Dəyişməyən simalar, eyni şüarlar, populist çağırışlar

## Milli-mənəvi dəyərlərimizə, mübarizə tariximizə hörmətsizlik edən müxalifət xalqın gözündən düşüb

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə yüksəlməsi, tərəfdaşlarının sayının artması həm erməni lobbisinin maliyyə dəstəyi ilə ayaqda duran xaricdəki şəbəkəni, həm də ölkədə demokratiya “axtarışına çıxanlar”ı hər zaman “narahat” edir. Ölkəmizin tərəqqisi sözügedən dairələrin qaranlıq maraqlarına cavab vermir.

Elə bu səbəbdən də onlar müxtəlif formalarda ölkəmizə təzyiq etmək, dünya ictimaiyyətini çaşdırmaq, o cümlədən Azərbaycandakı möhkəm təməllərə əsaslanan ictimai-siyasi sabitliyi pozmağa can atırlar.

Bu səbəbdən də daxildəki “beşinci kolon” vasitəsi ilə mitinqlər təşkil edib ara qarışdırmaqla məkrli planlarını həyata keçirməyə səy göstərirlər. Azərbaycan müxalifəti isə bir himə bənddir. Axı, onlar mitinq keçirməklə qrantlara sahib çıxırlar. Düzdür, bu vəsaitin böyük hissəsi mitinq iştirakçılarına deyil, partiya sədrlərinin xaricdə təhsil alan və ya yaşayan övladlarının hesablarına köçürülür. Mitinq həm də onlara öz “varlıqlarını” sübut etmək üçün lazımdır. 25 ildən artıqdır ki, dağıdıcı müxalifətdə təmsil olunan partiya və digər birliklər bu cür “səfil siyasi həyat” sürməklə məşğuldurlar. Hər dəfə də mitinqlərə topladıqları azsaylı yaxınlarına görə özlərini biabır edib, olan-qalan hörmətlərini də itirirlər.

Yanvarın 19-da keçirdikləri mitinqdə isə səsləndirdikləri köhnəlmiş fikirlər, bir gün sonra isə ümumxalq hüzn günündə AXCP sədri Əli Kərimli və bir qrup tərəfdarının Şəhidlər xiyabanındakı biabırçı hərəkəti utancverici idi. Axı, Şəhidlər xiyabanı Azərbaycanın müasir tarixində xüsusi yerə malik, dövlət müstəqilliyi ideyasına güclü təkan verən, istiqlal mübarizəsini simvollaşdıran müqəddəs məkandır. Belə bir məkandan siyasi məqsədlər üçün istifadəyə cəhd göstərilməsi həm qanunvericiliyə ziddir, həm də milli-mənəvi dəyərlərimizə, ənənələrimizə hörmətsizlikdir.

Mitinqə gəldikdə isə “birləşmiş müxalifət”in “Məhsul” stadionuna vur-tut iki min səkkiz yüzə yaxın adam yığması da təsdiq edir ki, artıq xalq bu təbəqəyə qətiyyən güvənmir. Onlar sosial şəbəkələrdə mitinqi az qala şəksiz qələbə kimi təqdim edib “hörmət” qazanmaq istəsələr də, əsl həqiqət üzə çıxdı. Çünki mitinq öz xaotikliyi, təşkilatçılığın zəifliyi, sistemsizliyi ilə diqqəti çəkdi. 25 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaq yorucu səs tembrləri yenidən təkrarlandı.

Bu gün müxalifət daxilində özlərini milli təəssübkeş, demokratiya carçısı kimi qələmə vermək istəyənlər də var. Ancaq həmin insanlar vaxtilə törətdikləri əməllərin unudulduğunu zənn edib gənc nəsli aldatmağa, çaşdırmağa çalışırlar. Bəs, heç də uzaq olmayan tarixdə baş verənlər necə olsun?!

1990-cı illərin əvvəllərində AXC-Müsavat iqtidarının nümayəndələrinin parlamentdə, mediada çıxışlarında bir-birinə qarşı ittihamları, yol verilmiş ciddi səhvlər, korrupsiya, rüşvətxorluq, xəyanət və s. barədə açıqlamalarını hər kəs yaxşı xatırlayır. Azərbaycan ictimaiyyəti bu məsələləri unutmayıb. Gənc nəsil də xarici güclərin dəstəyi ilə hakimiyyət iddiasını reallaşdırmaq istəyənlərin keçmişi haqqında həqiqətləri bilməlidir. Bu insanlar normal, sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Onlar hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar.

Mitinqdə AXCP sədri Əli Kərimli bir daha müxalifətin “lider” olduğunu isbatlamağa çalışdı və bu olay yenə də daxili çaxnaşmaya səbəb oldu.

Heç vaxt şəxsi ambisiyaları üzündən bir araya gələ bilməyən bu qüvvələr seçki prosesləri ərəfəsində bir araya gəlsələr də, seçkilərə “vahid namizəd”lə qatıla bilməyiblər. Daha doğrusu, öz aralarında bir-birinə güvənib namizəd seçə bilməyiblər və sonunda ayrılaraq bir-birinə sosial şəbəkələrdə, qəzet səhifələrində təhqirlər yağdırıblar.

Sonuncu mitinqdə daha bir reallıq da yaşandı. Xalq bir daha əmin oldu ki, bu qüvvələr hələ də dağıdıcılıq, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindədirlər. Onlar hətta öz məqsədlərinə çatmaq üçün Azərbaycanın Suriyanın, Liviyanın gününə düşməsinə belə razıdırlar.

Bütün bu reallıqlar, yəni, yanvarın 19-20-si baş verən hadisələr onu deməyə əsas verir ki, baş verənlər araşdırılmayınca, aqressiv müxalifətin kütləvi aksiya təşkil etməsi imkanları məhdudlaşdırılmalıdır. Çünki onların havadarlarının yeganə məqsədi bu ölkədə ictimai-siyasi sabitliyin pozulmasıdır. Dağıdıcılar bütün güclərini səfərbər edirlər ki, Azərbaycanda sabitlik pozulsun, ara qarışsın və bundan yararlanaraq öz məkirli planlarını həyata keçirsinlər və ölkəmizlə şantaj, təhdid dili ilə danışsınlar.

Amma Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, müstəqil, qətiyyətli və möhkəm təməllərə əsaslanmış siyasət yürüdən Azərbaycanla heç bir qüvvə təhdid dilində danışa bilməz. Çünki Azərbaycan tam müstəqil siyasət yürüdür və kiminsə diktəsi ilə hərəkət etmir. Bu dövlət hər cür xarici təsirə, çirkin kampaniyaya, qarayaxmaya sinə gərib, milli maraqlara toxunan məsələlərdə heç zaman güzəştə getməyib.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Məzəm, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Şirvanlı, Füzuli rayonunun Qərvənd və Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Ön cəbhədən reportaj







## Azərbaycan əsgəri ən hündür səngərdən bəyan etdi:

# "Qarabağı azad etməyə tam hazırıq!"

*Əvvəli 1-ci səh.*

### Döyüş ruhu hər zaman yüksəkdir

Hava soyuq olduğu üçün postlardan gələn əsgərlər isti kazarmada dincəlirlər. Qar üzərində ehmalca addımlayaraq sakit şəkildə kazarmaya daxil olub sürpriz etmək istəyirik. Bu zaman kazarmadan gələn xoş səda könül oxşayır. İstirahət edən əsgərlər gitaranın müşayiəti ilə mahnı oxuyurlar - "Əsgər, Vətən əmanəti, yurd əmanəti, Əsgər, ocaq əmanəti, od əmanəti"...

Və sakitcə içəri daxil olub musiqinin davam etməsini işarə edirik. Elə ürəkaçan mənzərə yaranır ki, heç bu xoş dəqiqələrin bitməsini istəmirsən. Sabahın milli qəhrəmanlarının, vətənpərvər igidlərinin ifa etdikləri bir-birindən maraqlı mahnılar insanı valeh edir.

Bəlli olur ki, bizdən bir qədər öncə Müdafiə Nazirliyinin tabeliyində olan "Vətən Uğrunda" Səyyar Təşviqat Dəstəsinin üzvləri hərbçilərimizə baş çəkməyə gəliblər. Dəstənin üzvləri burada xoşniyyətli aksiyalar həyata keçirirlər. Biri əsgərləri başına toplayıb gitarada mahnı ifa edir, digəri məktəblilər tərəfindən əsgərlərə yazılan məktubları paylayır və həmin məktublara cavab yazdırır. Sonra əsgərlər arasında müxtəlif bilik yarışmaları təşkil olunur və qaliblərə hədiyyələr verilir. Sonda isə hərbçilərin fotoları çəkilir və xüsusi "fotoprinter" vasitəsi ilə şəkillər çıxarılıb əsgər və zabitlərə paylanılır. Bir müddətdən sonra əsgərlərin yazdığı məktublar ailələrinə çatdırılır və internet bağlantısı ilə görüntülü danışıq yaradılır. Əlbəttə ki, bütün bu proseslər hərbçilərimizin ruh yüksəkliyinin artmasına təsir edən amillərdir.









### Təminat üstün səviyyədədir

Bir qədər sonra bayıra çıxıb postlara tərəf hərəkət edirik. Bizi müşayiət edən zabit Elşən İsayev deyir ki, qışda ərazidəki təhlükəsizlik tədbirləri gücləndirilir. Hər tərəfə qar yağdığı üçün bəzi çətinliklər olur. Ancaq hərbi hissə komandanlığının hər zaman diqqət mərkəzində saxladığı bu ərazilərə ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacaran vətənpərvər, mənəvi-psixoloji, fiziki hazırlığı yüksək səviyyədə olan əsgərlər göndərilir.

19 ildir ön cəbhədə düşmənlə təmas xəttində zabit kimi Vətənə xidmət edən həmsöhbətimiz burada olan çətin hava şəraiti və digər amillərin şəxsi heyətin xidmətinə bir o qədər də təsir göstərmədiyini deyir: "Gördüyünüz kimi, döyüş növbətçiliyini həyata keçirdiyimiz ərazilər başdan-başa qara bürünüb, günorta havanın bir qədər mülayim keçməsinə baxmayaraq, gecə uzunu şaxta, boran olur. Amma təbii çətinliklər bizi qorxutmur, çünki hərtərəfli sosial təminatımız var, isti paltarla, yun corabla, əlcəklərlə təmin olunmuşuq və üstəgəl yüksək kalorili qidalar. Belə nümunəvi şəraitdə gecə-gündüz Vətəni qoruyuruq. Düşmən heç vaxt təxribat törətməyə imkan tapa bilməz".

Zabitin sözlərindən bəlli olur ki, təmas xətti özünəməxsus çətinlikləri, ciddi rejimi, əsgər və zabit heyətinin yüksək nizam-intizamı ilə seçilir. Burada xidmət keçən əsgər və zabitlərin mənəvi-psixoloji cəhətdən möhkəm, fiziki cəhətdən güclü olması vacib şərtlərdəndir. Ön cəbhədə əsas diqqət döyüş növbətçiliyinə yönəldilir. Əsgərlər təlimləri əsasən ehtiyat bölmələrində keçir, bura tam hazır vəziyyətdə gəlirlər. Ön cəbhədə xidmət edən əsgərlər seçilərkən onların fiziki və psixoloji-mənəvi hazırlıqları nəzərə alınır.

### Xalqımız bizə güvənir

Bir qədər sonra postda duran ağ paltarlı əsgərə yaxınlaşırıq. Bir an belə nəzarətdən diqqətini yayındırmır. 14 aydır burada nümunəvi xidmət çəkən əsgər Elgiz Abdullayev Ağdaş rayonundan həqiqi hərbi xidmətə çağırılıb. Tərxis olunmasına cəmi 4 ay qalıb. Xidmət etdiyi müddətdə səhvə yol verməyib. Deyir ki, bir əsgər kimi vəzifəsini çox yaxşı bilir: "Hər zaman ayıq-sayıq xidmətdəyik. Bizə necə qayğı göstərilirsə, o cür də xidmət edirik. Yaxşı dərk edirik ki, bu səngərlərdən arxada xalqımız bizə güvənərək yaşayır. Uşaqlar güllə səsi eşitmədən yuxudan oyanır. Ona görə də hər birimiz üçün müqəddəs Vətəni möhkəm müdafiə etmək yaşam tərzidir. Biz öz mövqelərimizdə hər an ayıq dayanmışıq. Başa düşürük ki, müharibə şəraitindəyik. Hələ ki müharibə başa çatmayıb, qarşımızda torpaqlarımızı işğaldan azad etmək vəzifəsi var. Hələ ki düşmənin hər bir hərəkətini gecə-gündüz müşahidə edirik, onu daim nəzarətdə saxlayırıq. Bizi nə düşmən, nə də şaxta-boran qorxudur".

### Ürəyimizdəki Vətən sevgisi bizə güc, qüvvət verir

Digər döyüş növbətçisi, əsgər Zaur Qəribov 10 aydır hərbi xidmətdədir. Bakı şəhərindən hərbi xidmətə çağrılan əsgər ən yüksək zirvədə xidmət çəkməsi ilə qürur duyur. Deyir ki, bu, hər gəncə nəsib olmur:

"Düzdür, hərbi xidmət hər yerdə eynidir. Amma yüksəklikdə, xüsusən də ilin çox aylarında qar, şaxta və boranda xidmət etmək asan iş deyil. Burada xidmət edənlər ikiqat ayıq-sayıq olmalıdırlar. Həm düşməndən, həm də relyefdən, havadan özünü qorumalısan. Bəlkə də bəzilərinə elə gəlir ki, ön xətdə xidmət etmək çətindir. Amma belə deyil. Vətən keşiyində durmaq şərəflidir. İsti-yə-soyuğa məhəl qoymadan Vətən sevgisi ilə düşmənin gözünə dik baxırıq, çünki ürəyimizdəki sevgi bizə güc, qüvvət verir. Buna görə də bütün çətinliklərə sinə gəririk. Əslində ön xətdə xidmət etmək insana həyatda vacib olan mənəvi keyfiyyətləri aşılayır. Vətən torpağının hər qarışının nə demək olduğunu anlayırsan, qorxmazlığı, mərdliyi öyrənirsən".

### Bol çeşidli əsgər süfrəsi

Hava getdikcə soyuyur. Geri qayıdıb kazarmada közərən odun peçinin istisinə sığınırıq. Postdan qayıdan əsgərlər rahat çarpayılarda uzanaraq televizora baxır, dincəlir, bir sözlə, istirahətlərini səmərəli keçirirlər. İkimərtəbəli çarpayılar, qalın yun adyallar, təmiz mələfələr və əl-üz dəsmalları əsgərlərin sosial-məişət şəraitinin yüksək olmasının göstəricisidir.

Burada, həmçinin mətbəx, anbar, sanitariya qovşağı və hamam da mövcuddur. Bir qədər sonra anbara daxil olub əsgər payları ilə tanış oluruq. Zabit Elşən İsayev deyir ki, komandanlıq tərəfindən bütün bölmələr ərzaqla təmin olunur. Verilən ərzaqlar artıqlaması ilə çatır. Hərbçilər burada yemək sarıdan heç bir korluq çəkmirlər.

Bir qədər sonra bizi çay süfrəsinə dəvət edirlər. Hətta süfrəyə indicə kürədən çıxmış qaynar-qaynar çörək də qoyulur. Əsgərlər burada özləri üçün isti çörək də bişirirlər. Bir tərəfdən çörəyin ətri, o biri tərəfdən odun peçinin istisi və bu maraqlı auranın fonunda yaranan mənzərə sanki kənd evini xatırladır.

### Dağlara yayılan əsgər sədası

Əsgərlər çay süfrəsindən qalxırlar, bayırda yenidən masa qurulur. Yenə də gitaranın müşayiəti ilə ifa edilən hərbi mahnılar könül oxşayırlar. Xor oxunan mahnıların sədaları sankı dağlara yayılır.

Bir qədər sonra yenə də söhbətləşməyə başlayırıq. Əsgərlərdən Murad Allahverdiyev, İntiqam Süleymanov, Elməddin Abbasov, Sənan Yarıyev, Əlisa Abdullayev, Nicat Abduləzizov, Natiq Allahyarov maraqlı fikirlər səsləndirdilər. Uca dağlar qoynunda xidmət edən bu mərd oğullar deyirlər ki, isti yataqxanaların, qida və geyim təminatlarının qaydasında olması uğurlu xidmətləri üçün zəmin yaradır: "Heç nədən korluq çəkmirik. Yataq dəstlərimiz, paltarlarımız hər həftə yuyulub, təmizlənir. Belə şəraitdə xidmət etmək, yuxarı komandanlıq tərəfindən qayğı görmək döyüş ruhumuza müsbət təsir edir. Keçirilən dərslərdə, məşğələlərdə həvəslə iştirak edir, hərbi bilikləri, döyüş hazırlığını mükəmməl öyrənməyə can atırıq. Ali Baş Komandanımıza, Müdafiə nazirimizə dərin təşəkkürümüzü bildiririk ki, daim bizə qayğı göstərir, bütün təminatlarımızı yüksək səviyyədə təşkil edirlər. Göstərilən bu diqqətin qarşılığında bizim öhdəmizə düşən tək vəzifə torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıb, Vətənə sadiq əsgər olmaqdır. Bizə inanın və güvənin".

Əsgərlər deyirlər ki, hərbi xidmətdə keçən günlərin dəyəri böyükdür, çünki ordu mühitində həm Vətəni qorumaq, həm də cəmiyyətin əsl vətəndaşları olmaq üçün zəruri vərdişlərə yiyələnirsən. Kim ordu həyatını qəhrəmanlıq məktəbi hesab edirsə, tam haqlıdır. Çünki orduda xidmət etməklə, özü də ön xətdə döyüş növbətçiliyi aparmaqla düşmənə gücünü sübut edəcək döyüşçü kimi formalaşırsan.

### Qələbəmizi mütləq təmin edəcəyik

Azərbaycan əsgəri inanır ki, işğal altında olan torpaqlarımız Ermənistanın nəzarəti altında çox qalmayacaq: "Mübariz, döyüşkən gəncliyi olan Azərbaycan dövləti tezliklə ərazi bütövlüyünü təmin edəcək. Apardığımız mübarizə haqq işidir, bütün dünya ictimaiyyəti artıq Ermənistanı işğalçı kimi tanıyır. Əgər belə davam edəcəksə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmənə öz gücümüzü yenidən sübut edəcəyik. Biz müstəqil Vətənimizi son qarışına kimi azad görmək həsrətindəyik və inanırıq ki, qələbəmizi təmin edəcəyik".

Zabit Loğman Xanlarov isə son 15 ildə Azərbaycan Ordusunda böyük dəyişikliklər baş verdiyini xüsusi vurğulayır: "Ötən illər ərzində Azərbaycan Ordusunda çox böyük yeniləşmənin, inkişafın şahidiyik. Hansısa mərhələdə üzləşdiyimiz müəyyən çətinliklər indi tamamilə aradan qalxıb. Komandanlıq tərəfindən ön cəbhəyə böyük diqqət və qayğı göstərilir. Əsgərlər mənəvi-psixoloji cəhətdən möhkəm və hazırlıqlıdırlar. Onlar indi yüksək ovqatda - Vətən, dövlət, bayraq sevgisi ilə ön cəbhəyə gəlirlər. Hərbi hissələrdə döyüş hazırlığı planına əsasən onlara müxtəlif dərslər keçirlər. Əsgərlərimiz özlərini mənəvi-psixoloji baxımdan döyüşə tam hazır sayırlar. Hər bir zabit və əsgər Azərbaycan dövlətinin, Ali Baş Komandanın, Müdafiə Nazirliyinin yüksək diqqət və qayğısını hiss edir. Belə bir çətin mövqedə yaradılan yüksək şərait bizi hər zaman düşmən üzərində qələbəyə çağırır. Biz hərbçi kimi daim komanda gözləyir, üzərimizə düşən məsuliyyətin ağırlığını hiss edirik".

Həm əsgər və zabitlərimizin fikirləri, həm də ən ucqar təmas xəttində yerləşən bölmədə gördüklərimiz bizləri də ruhlandırır.

Əminliklə demək olar ki, bu gün Azərbaycan əsgərləri vətənpərvər, yüksək mənəvi-psixoloji hazırlığı olan, yetərincə dünyagörüşə malik gənclərdir. Onların həyat məktəbi adlandırdıqları hərbi xidmət həyatlarında müsbət iz buraxmaq və formalaşmalarına təsir göstərməklə bərabər, həm də Azərbaycan Ordusunun qarşısında müəyyənləşən vəzifələrin tezliklə gerçəkləşməsinə inam yaradır.

Elə bu xoş təəssüratla da hərbçilərimizlə sağollaşıb ayrılırıq. Tanrı sizləri qorusun!..

Yolumuz hərbi hissənin digər bölmələrinədir...

*(ardı var)*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***












# DƏRİSİNİ SOYSALAR BELƏ, ƏQİDƏSİNDƏN DÖNMƏDİ

"Müdrik xalq" - hansı xalqa deyirlər?

" Xalqın müdrikliyi" nədir və onu necə müəyyənləşdirmək olar?

Maraqlı suallardır, deyilmi?

Xalq özü abstrakt anlayışdır, mahiyyətcə bir yerdə yaşayan, müəyyən əlamət və prinsiplərlə birləşən toplum mənasındadır.

Əvvəla, ağlı, müdrikliyi ölçmək üçün hələ ki, xüsusi cihaz icad edilməyib!

İkincisi, belə cihaz olsa belə, konkret olmayan şeyi, onun təsəvvürə gətirilməyən ağlını həmin cihazla necə ölçmək mümkündür?!

Amma həyatda "ağıllı xalq", "müdrik xalq" olub və yenə də var!

Əslində, hər bir xalqın ağlı, müdrikliyi onun mütəfəkkir övladlarının, görkəmli yazıçı və şairlərinin, məşhur dövlət və siyasi xadimlərinin simasında öz təcəssümünü tapır!

Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Mirzə Fətəli Axundov, Üzeyir bəy Hacıbəyli təkcə şair, yazıçı, dramaturq, bəstəkar deyil, həm də xalqımızın düşüncə, istedad, yaradıcılıq və müdrikliyini təzahür etdirənlərdir.

Heydər Əliyev kimi siyasət nəhəngini yetişdirən xalqa necə ağıllı, müdrik deməyəsən?!

Azərbaycan xalqı dünyada belə şəxsiyyətləri ilə tanınır, sevilir!

Nizami Gəncəvi müdriklik simvoludur!

Məhəmməd Füzuli Şərqin ən böyük aşiqi, məcnunudur!

Mirzə Fətəli Axundov görkəmli dramaturq, filosofdur!

Üzeyir bəy Hacıbəyli dahi bəstəkardır!

İmadəddinn Nəsimi isə filosov-şair olmaqla bahəm, həm də dünyada dönməz əqidə sahibi kimi də tanınır!

Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu miskin aşiqi sərpa soyarlar, ağrımaz - özü öz dönməzliyinə belə qiymət verib!

Dövlət başçısı cənab İlham Əliyev 2019-cu ili "Nəsimi ili" elan etdi.

Hamının ürəyindən olan bir qərardır!

Dünyaca məşhur olan mütəfəkkir şairlərimizi daim özümüz də öyrənməli, əsərlərini dönə-dönə oxumalı, yorulmadan təbliğ etməliyik.

Çünki onlar həm də xalqımızın ağlının və müdrikliyinin, yüksək amal və ideallara sadiqliyinin göstəriciləridirlər.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə çoxsaylı şair, yazıçı, bəstəkar və siyasi xadimlərimizin yubileyləri (keçmiş Sovetlər İttifaqı və dünya miqyasında) keçirildi, əsərləri təkrar-təkrar nəşr edildi, abidələri ucaldıldı.

Nəsiminin də təntənəli yubileyi keçirildi, heykəli qoyuldu, həyatından bəhs edən iki seriyalı "Nəsimi" filmi çəkildi.

Xalq ulu öndərin bu sahədəki xidmətlərini də minnətdarlıqla xatırlayır.

"Nəsimi ili"ndə çoxsaylı, rəngarəng və bir-birindən maraqlı tədbirlərin keçiriləcəyi, görkəmli şairimizin əsərlərinin yenidən çap olunacağı şübhə doğurmur.

Yeni bədii filmin çəkiləcəyi isə gözlənilmir...

Sevimli yazıçımız, millət vəkili Hüseynbala Mirələmov bu sahədəki boşluğu doldurmaq üçün cəsarətli addım atmışdır...

Nəsiminin həyatından bəks edən "Sonuncu səfər" adlı povestini tamamlayaraq redaksiyamıza təqdim etmişdir.

Çox yerinə düşən bu gözəl əsərin oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliklə onu kiçik parçalarla "Azərbaycan"ın səhifələrində dərc edirik.

Bunun həm də bizim "Nəsimi ili"ndə oxucularımıza birgə sürpriz hədiyyəmiz olacağını güman edirik.

...Əsəri oxuyub qurtardıqdan sonra onun gözəl bir filmin ilkin ssenarisi olduğu qənaəti də yaranır...

***Bəxtiyar SADIQOV***

---



*Hüseynbala MİRƏLƏMOV*

# SON SƏFƏR

## Povest

*Zülfünün sirri uzundur, halı çox,*
*Şol şəkər sözlu dodağın balı çox...*
***İmadəddin Nəsimi***

1409-cu ilin yazı idi. Şairlər şairi Seyid Əli İmadəddin Nəsimi ölkə-ölkə dolaşmaqdan - məscid, karvansara və xanəgahlarda gecələməkdən, dərviş, abid, imam, şair və səyyahlarla söhbət eləməkdən yorulub, doğma Şamaxıya qayıdırdı. O, artıq belə qərara gəlmişdi ki, ömrünün yerdə qalanını ata yurdunda - kiçik qardaşı Şahxəndanla bir yerdə keçirsin və Şahxəndan onun bu uzun illər ərzində yazdıqlarının üzünü köçürüb, səliqə-sahmana salsın.

Əvvəllər də qardaşının şeirlərinin üzünü köçürən, aparıb məscidlərə, mədrəsələrə paylayan, daha doğrusu, hədiyyə edən Şahxəndan hələ altı-yeddi yaşında ikən hüsnxətti və kitab cildləməyi öyrənmiş, bunun sayəsində də ruzi sahibi olmuşdu.

Şahxəndan Qurani-Kərimin üzünü tez-tez köçürdüyündən, altı min altı yüz altmış altı ayənin, yüz on dörd surənin tamamını əzbər bilirdi və buna görə də yaşının çox az olmasına baxmayaraq, imamlar, axundlar, mollalar arasında xüsusi hörmət-izzəti vardı. Hətta bəzən onu mötəbər dini məclislərə - mərasimlərə dəvət edirdilər.

Şairlər şairi Seyid Əli İmadəddin Nəsimi ilə Şahxəndanın ərdə olan iki bacısı da var idi. Bacılar növbə ilə ayda bir-iki dəfə gəlib, - həmişə də dolu boğça ilə - kiçik qardaşlarına - Şahxəndana baş çəkirdilər.

Şahxəndanın gündəlik qulluğunu isə qonşuları Gülnaz xala görürdü və halallıq olsun deyə, bunun üçün ayda iki dinar əməkhaqqı alırdı - bayram hədiyyələri-filan buna daxil deyildi...

Günortaüstü Şamaxının moza-moza, dirədöymə, qaçdı-tutdu, gizlənqaç, çilingağac oynayan, yumurta döyüşdürən bütün uşaqları Şahxəndangilin evinin qabağına yığışdılar və başladılar bir ağızdan qışqırmağa:

- Muştuluğumuzu ver, qardaşın gəldi.

Təbii ki, Şahxəndan hədsiz dərəcədə fərəhləndi, sevincək oldu - açdı səxavət kisəsinin ağzını, kiminə kişmiş, kiminə nabat, kiminə tut qurusu, kiminə də ərik, alma, armud qaxı verdi.

İldə iki dəfə ata minib, gah məğribə, gah məşriqə üz tutan, üsyankar fikirləri ucbatından ruhu daim təlatümlər içində olan, getdiyi hər yerdə əqidəsini - hürufiliyi təbliğ edən şairlər şairi Seyid Əli İmaməddin Nəsiminin gözlənilmədən ata ocağına belə tez qayıtması Şahxəndanın qəlbində bir ümid qığılcımı yandırdı: "Kim bilir, bəlkə daşı ətəyindən töküb evlənəcək? Yaşı qırxı haqlayır - nə vaxta qədər subay qalacaq?"

Məsələ burasındadır ki, Seyid Əli hələ mədrəsədə oxuyarkən Hüsniyyə adında bir qıza aşiq olmuşdu, amma uzaqdan-uzağa, gizlin. Qəlbini aça, eşqini dilə gətirə bilməyən şair öz şeirlərində sevgilisini vəsf edir, ah çəkir, fəryad qoparır, hicr odunda alışıb yanırdı. Amma çox çəkmir ki, onun ülvi eşqlə süslənən könül bağçasını xəzan vurur...

Seyid Əlinin məhəbbətindən bixəbər olan Hüsniyyə on altı yaşında ikən valideynləri tərəfindən mədrəsədən uzaqlaşdırılır, qəti istəməsə də, zorla bir müsəllimə ərə verilir. Amma o, Seyid Əlinin qəlbində elə kök salır, elə fəsli-yaz yaradır ki, daha orada bir başqası üçün yer qalmır. Şairin bütün fikri-zikri, xəyalı və xoşbəxtliyi məhz bu sevgi ilə pərvəriş tapır.

Seyid Əli fikirləşir ki, eşq də şairlik kimi bir xəstəlik, bir mərəzdir. Amma nə etmək olar, bir xəstəlik, bir mərəz olsa da, xoşdur.

Seyid Əliyə gəncliyindən üzü bəri çox qənirsiz gözəllər aşiq olmuşdu. Amma onların heç biri Hüsniyyənin gündən-günə güclənən həsrətini qəlbindən silə bilməmişdi...

Ölkələr fəth etmiş Əmir Teymurun 1405-ci ilin fevralında qəflətən vəfat etməsi ilə Yaxın Şərqə, eləcə də Ön Asiyaya qəribə bir sakitlik çökdü. Bunu taleyin lütfü və töhfəsi kimi qəbul edən ölkələr, səltənətlər yavaş-yavaş dirçəlməyə başladılar.

İlk özünə gələnlərdən biri Bahar tayfasından olan və uzun illərdən bəri Misirdə zindanda yatan Qara Yusif oldu.

Misir Sultanı, Əmir Teymurun ölüm xəbərini alan kimi Qara Yusifi zindandan azad edib, ona ənam kimi bir kisə qızıl, bir at və bir bələdçi verib dedi:

- Azadsan, get yurdunda öz taxt- tacına sahib ol!

Uzun illərdən bəri zindanda əli-qolu bağlı olan Qara Yusif atın belinə sıçrayıb, məmlük sultanına dedi:

- Sizi əmin edirəm ki, həyatımı bağışladığınıza görə heç vaxt peşman olmayacaqsınız. Çünki inanmıram Əmir Teymurdan və Toxtamışdan sonra kimsə mənim qolumu qatlaya bilsin.

Məmlük sultanı onun bu sözlərinə gülüb dedi.

- Bəs teymurilər, cəlairlər? Sən hələ ki, təksən, onların isə Təbrizdə hazır vəziyyətdə dayanmış böyük orduları var.

Qara Yusif əlini yuxarı qaldırıb dedi:

- Sultan həzrətləri, əgər başda ağıl, qolda güc, ürəkdə təpər varsa, ordu da olacaq, zəfər də. Sağ olun! Bir gün sizi qonaq çağırsam, yəqin ki, gələrsiniz.

Məmlük sultanı atını güclə ram edən Qara Yusifin bu sözlərinə də güldü:

- Çətin, ərəbləri bircə gün özbaşlarına qoysam, Allah bilir, nə hoqqalardan çıxarlar...

Qara Yusif həm cismən, həm də ruhən bərk yorulmuşdu. Odur ki, hələ bir müddət Misirdə qalmaq, dincəlmək istəyirdi. O, gündüzlər qızmar qum üstündə dəmlənmiş qəhvə içir, dəvə güləşlərinə baxır, günortalar dupduru suları gün işığında bərq vuran çarhovuzların kənarında, sərv ağaclarının kölgəsində mürgü döyür, axşamlar yarıçılpaq rəqqasələrin məclislərində eyş-işrətlə məşğul olur, bununla da havasız, qaranlıq zindanın daş döşəməsində sağ böyrü ağrıyanda sol böyrü, sol böyrü ağrıyanda sağ böyrü üstə yatdığı günlərin ağrı-acısını canından çıxarırdı...

Falçıların söylədikləri xoş sözlərə, rəmmalların vəd etdikləri qələbələrə baxmayaraq, Qara Yusif Təbrizə, elə-belə, tez-tələsik - hazırlıqsız getmək istəmirdi. Odur ki, Misir sultanının hədiyyə etdiyi qızıldan bir qədər verib, yeddi çapar tutdu və dedi:

- Hərəniz bir səmtdən Azərbaycana girəcək, kənd-kənd, şəhər-şəhər dolaşıb, əhaliyə çatdıracaqsınız ki, Qara Yusif zindandan çıxıb, artıq yoldadır, gəlir, pişvazına hazırlaşın!

Çaparların ardınca Qara Yusif özü də yola çıxdı. Hər yerdə macəra axtaranlar, igidlik eşqinə düşənlər, şan-şöhrət sahibi olmağı arzulayanlar ona qoşulur, sədaqətli olacaqlarına, son damla qanlarınadək vuruşacaqlarına and içirdilər. Qara Yusif Naxçıvan civarına gəlib çatanda,yanında ən azı, əlli min döyüşçü vardı, hamısı da silahlı. Əmir Teymurun ölümündən sonra Təbrizdə özünü tam sərbəst hiss edən və əsl hakimiyyətin dadını dadan Əbu Səid Araz çayının qırağında Qara Yusifin qabağını kəsdi, amma nədənsə, dərhal döyüşə girməyə lüzum görmədi və qəfil, gözlənilmədən peyda olmuş "rəqibinə" belə bir namə göndərdi: "Hər dəfə sədaqət və etibardan dəm vuran Misir sultanı başından böyük bir qələt eləyib səni zindandan buraxıb, buna görə layiq olduğu cəzanı alacaqdır. Sən isə, təslim ol, nə fərqi, Qahirə, yaxud Təbriz zindanı?"

Əbu Səidin göndərdiyi namə Qara Yusifi qəzəbləndirdi, elçinin boynunu dərhal vurdurdu və qoşunun önünə gəlib, əlini düşmən tərəfə uzatdı:

- Bu sarsaq elə bilir ki, atasının -Əmir Teymurun ruhu və şücaəti də ona miras qalıb!

### *Müəllifdən*

İllər boyu beynimdən keçən bir fikir ötən il qəlbimə də iz saldı.

Nəsimidən yazmaq istədim...

Nəsiminin timsalında cahilliyə qarşı dirənişini azaltmayan kamilliyi, nadanlıq önündə çox vaxt susdurulan əsl insanlığı, mübarizliyi, dəyanəti qələmə almağa çalışdım...

Uzun dövrlər ərzində qalaqlanaraq yığılmış qeydlərimi ötən ilin oktyabrında bir masanın üstünə toplayaraq, onlardan bir povest ərsəyə gətirməyə anidən qərar verdim...

Bu ilin ilk günlərində bitirdim son əsərimi...

Və bir neçə gün sonra 2019-cu ilin Prezident tərəfindən "Nəsimi ili" elan edilməsini eşidəndə sevindim, çox sevindim...

Deməк, fəhmim imiş məni tələsdirən...

Yenə də anidən qələm dostum, ruh qardaşım Bəxtiyar Sadıqova telefon açdım. Mətləbi bildi, povesti dərhal istədi, bir neçə saata oxuyub bitirdi və qərarını da verdi: "Hüseynbala müəllim, bu povesti rəsmi dövlət qəzetində dərc edəcəyik. Qoy bu, sizinlə bizim "Nəsimi ili"nə töhfəmiz olsun"...

Çox məsud oldum. Əziz oxucularımız bu gündən hamımızın qəzetində - "Azərbaycan"da "Sonuncu səfər" povestimi hissə-hissə mütaliə imkanı əldə etdilər...

Əslində, qəhrəmanım şairlər şairi Seyid Əli İmadəddin Nəsimi deyil...

Onun iztirablarıdır, ağrılarıdır, öz vətənində təklənməsidir...

48 illik ömrün bitməyən məşəqqətlərini qısa bir dövr üçün - Nəsiminin Azərbaycana, Şamaxıya son səfəri müddətində rəmzləşdirdim...

Binava Nəsimi, bədbəxt Nəsimi nə vaxt xoş gün gördü ki?!.

Amma ona qarşı ən böyük "cihadı" ilk olaraq özümüz başlatdıq, elə ən ağır zərbələri də özümüz vurduq...

Mən bundan yazdım, Nəsiminin şəxsində özümüzün özümüzə qənim kəsilməyimizdən və bu naqisliyin əsrlərdir davam etməsindən bəhs etdim...

Axı, Hələbdə dərisi soyulan Nəsiminin hələ daha əvvəl burada - bu məmləkətdə ruhunu soymuşduq, qəlbini dilim-dilim etmişdik...

Bəlkə də bəlağətə varıram, amma düşüncəm budur ki, hər bir yazıçının, şairin qələmindəki mürəkkəbdə həm də Nəsiminin - onun sələflərinin və xələflərinin qanı axır...

Qoy bu qan daha ruhumuza, mənəviyyatımıza tökülüb çalın-çarpaz izlər buraxmasın, əksinə, vərəqlərə axıb ruhumuzu, mənəviyyatımızı saflaşdırsın, xəbislikdən arındırsın...

Nəsiminin istədiyi kimi insanlaşaq, kamilləşək, mənəvi vəhdətə çataq...

---

Qara Yusif bu sözləri deyəndən sonra atını elə dəhmərlədi ki, sanki yaydan ox çıxdı! Teymurilər üstlərinə şimşək kimi şığıyıb gələn Qara Yusifin yenilməz döyüşçülərinin qarşısında tab gətirməyib, geri çəkildilər - sanki onların atdıqları oxlar ya boşa çıxır, ya da daşa dəyirdi. Nəticədə, Əmir Teymurun ölümündən sonra girdiyi ilk döyüşdəcə məğlub olan Əbu Səidin meyiti belə tapılmadı.

Amma Qara Yusif hətta bu ildırım sürətli möhtəşəm qələbədən sonra da Təbrizə yürüş etmədi. Səbirli və təmkinli olmağa çalışdı. Çünki xəfiyyələri xəbər gətirmişdilər ki, Miranşaha məxsus ordu birlikləri şəhərin ətrafında bərqərar olublar, - indi ora quş quşluğu ilə səkə bilməz. Odur ki, Qara Yusif - Qaraqoyunlular sülaləsinin yeni doğan günəşi belə qərara gəldi ki, qələbə çalacağına tam əmin olmayanacan yerindən tərpənməsin və həlledici döyüş üçün hərtərəfli hazırlıq görsün...

Bax, elə həmin dövrdə Azərbaycanın iftixarı - şairlər şairi Seyid Əli İmadəddin Nəsimi yüklü bir dəvənin belində Şamaxıya gəldi. Şahxəndan qardaşını şəhərin lap girəcəyində qarşıladı.

Şairlər şairi dəvədən enib, qardaşını qucaqladı, üzündən öpdü:

- Maşallah, - dedi, - böyümüsən. Boyun artdığı kimi, ağlın da artıbsa...

Şahxəndan güldü:

- Dadaş, vallah, boyumun da, ağlımın da artdığını özüm hiss eləmirəm. Bunu sən bilərsən.

Seyid Əli zəndlə qardaşının üzünə baxdı:

- Artıb, artıb, Şahxəndan, görürəm... - dedi və qəfildən soruşdu:

- Yaxşı, de görüm, indi Təbrizdə şah kimdir?

Sevindiyindən ağlamağı ilə gülməyi bir-birinə qarışmış Şahxəndan dedi:

- Dadaş, bir evimizə çataq, ondan sonra soruş da. Nəyinə lazımdı kimdir şah?

- Balası, necə nəyimə lazımdı? Bax, şahın bığı aşağı sallanıbsa, bütün kişilərin bığı aşağı sallanacaq, yox, əgər şahın bığı şeş dayanıbsa, bütün kişilərin bığı şeş dayanacaq. Yəni, ölkədə hamının bığının necə olması bir adamın bığının necə olmasından aslıdır. Başa düşdün?

- Başa düşdüm.

- Lap yaxşı. İndi de görüm, Təbrizdə şah kimdir?

- Heç kim.

- Neçə yəni heç kim?

- Qara Yusiflə Miranşah neçə gündü öz aralarında müharibə eləyirlər. Hansı qalib gələcək, bilinmir.

- Hə, demək, bığın vəziyyəti qeyri-müəyyəndir.

Hər ikisi güldü.

Seyid Əli bu dəfə qardaşını lap bərk qucaqladı, elə bərk qucaqladı ki, araqçını sürüşüb başından yerə düşdü və o, fərəhindən qəşş elədi.

Onlar darvazanı açıb içəri girəndə, it çoxdan ayrıldığı sahibini- Seyid Əlini görəndə, sevindiyindən atılıb-düşdü, quyruğunu buladı və ilk dəfə gördüyü dəvəyə sarı bir-iki ağız hürdü...

Seyid Əli üzünü Şahxəndana tutub dedi:

- Balası, sən dəvənin yükünü boşalt, mən də həyətimizə bir göz gəzdirim. Görüm ağaclarımızdan quruyanı yoxdu ki?

Şahxəndan dəvənin yükünü boşaltmağa başladı - rəngbərəng saplarla toxunmuş heybələrdə nələr yox idi... O, içi ləl-cəvahiratla dolu, ağır pul kisəsini Seyid Əliyə göstərib dedi:

- Çöl-biyaban, quldur-qacaqla, yol kəsənlə doludu, nə əcəb, heybəndə bu cür qiymətli şey-şüy ola-ola, sənə dəyib dolaşmırlar?

- Hə, balası, bax bu sirdi. İstəyirsən açım?

Şahxəndan maraqla qardaşının üzünə baxdı və dedi:

- Aç.

- Deməli, gördüyün bu ləl-cəvahiratların hamısını mənə elə o quldur-qaçaqların, yolkəsənlərin özləri bağışlayıblar. Bəndəyi-həqirinizi...

Şahxəndan özünü itirdi:

- Əstəğfürullah, dadaş...

Seyid Əli sözünə davam etdi:

- Hə, bəndəyi-həqirinizi uzaqdan görən kimi ağız-ağıza verib qışqırırlar: Şairə ənam! Şairə ənam!

- Sən də o haram ənamları dədə malı kimi cibinə qoyub, sağa-sola xərcləyirsən...

- Səhvin var, balası. Mən o bəxşişləri əsl sahiblərinə - onları hardan və necə tapa bilərəm ki...- qaytara bilməsəm də, ehtiyacı olanlara - fəqir-füqəralara paylayaram. Bunları da birtəhər artırıb, Şamaxı kasıb-kusublarına gətirmişəm, pay-püş elə getsin, şahın gözündən iraq.

Hər ikisi qəşş eləyib güldü. Seyid Əli dedi:

- İstəyirsən, sənə bir sirr də açım.

Şahxəndan dərhal cavab verdi:

- Aç, dadaş, aç!

- Bu yolkəsənlər, quldur-qaçaqlar bilirsən şeiri necə xoşlayırlar?

- Boy? Zarafat eləyirsən?

- Yox, həqiqi sözümdü. Elə ki, yaxanı ələ verdin, əl çəkmirlər. "Şair, birini də oxu! Şair, birini də oxu! Şair, birini də oxu!"

- Sən də oxuyursan?

- Oxuyuram.

- Maraqlıdır, sənin oxuduğun şeirlər onlara neçə təsir eləyir?

- Vallah, hərəsinə bir cür, biri ağlayır, gözündən bıldır-bıldır yaş tökür, biri də elə hey gülür, gülür, gülür, di gəl. baş aç... Bir dəfə, içlərində biri vardı, mənə dedi ki, təkcə sən həqiqəti yazırsan. Soruşdum ki, axı, nədən bilirsən? Dedi, bax, sən yazırsan ki:

Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam.

- Doğrudan da, belədir. Bu gün gündoğandasansa, sabah günbatandasan, bu gün güneydəsənsə, sabah quzeydəsən. Bir yerdə durmursan ki!

Hər ikisi yenə qəşş eləyib güldü. Seyid Əli dedi:

- Eh, balası, onların yolkəsənliklərinə baxma, qəlblərinin dərinliyində o qədər munis duyğular var ki! Şah olsam, onları bircə gündə haqq yoluna gətirərəm. Nə isə... Həyətimizə pis baxmamısan. Görürəm, təzə ağaclar da əkmisən. Qızılgüllər daha çox xoşuma gəldi. Bu il olmasa da, gələn il açacaqlar.

- Birinin üstündə düymə var.

- Gözümə dəymədi, axı...

- Yarpağın altında gizlənib...

- Nədi, naz eləyir?

- Bəlkə də...

- Yəqin qəmzəli gül olacaq...

- Onu sən bilərsən, dadaş.

Seyid Əli söhbəti dəyişdi:

- Balası, mən uzaq yoldan gəlmişəm. Acam, Şamaxının da ləziz xörəklərindən ötrü burnumun ucu göynəyir.

Şahxəndan dedi:

- Gülnaz xala bir az bundan qabaq turşu-kabab bişirib. Gətirimmi?

- Gətir balası, gətir.

Şahxəndan eyvanda süfrə açdı. Balaca qazançadakı turşu-kababı iki qaba çəkdi, nimçəyə göy-göyərti qoydu, piyalələrə şərbət süzdü. Sonra qardaşlar "bismillah" - deyib əllərini çörəyə uzatdılar.

Seyid Əli çoxdan yemədiyi turşu-kababın dadına baxa-baxa dedi:

- Hə, deyirsən Qara Yusiflə Miranşah -biri Təbrizdə, biri də Naxçıvanda şöngüyüb, bir-birlərinə mırıldayırlar?

Şahxəndan qaşlarını dartdı və elə bil gözləri də bir balaca böyüdü:

- Dadaş, bunu mən yox, sən deyirsən ha!

Seyid Əli yüngülcə qımışdı:

- Balası, qorxdun?

- Bəs necə?! Mən Seyid Əli İmaməddin Nəsimi deyiləm ki, qorxmayıb, ağlıma gələn hər şeyi danışam. Şamaxıda divarların da qulağı var.

Seyid Əli ciddi görkəm alıb, dedi:

- Düz deyirsən, balası, dünya dəyişib, elə bil bu camatın hamısı gözünü açandan Şirvanşahlara casusluq edir.

O, ağzını dəsmalla silib, dua etdikdən sonra şərbət dolu piyaləni başına çəkdi.

Şahxəndan, qardaşının turşu-kababı böyük iştaha ilə yeməsinə, üstündən də şərbət dolu iri piyaləni birnəfəsə başına çəkməsinə baxanda, nədənsə, möhkəm kövrəldi və qeyri-ixtiyari öz-özünə pıçıldadı: "Allah heç kəsə qürbət nəsib etməsin".

Seyid Əli ayağa qalxıb dedi:

- Hə, indi süfrəni yığışdır, dəvənin də hörüyünü dəyiş, qabağına da bir az su qoy, sonra gəl, danış görüm, mən burda olmayanda Şirvanda nələr baş verib?

Şahxəndan birdən:

- Vay-vay... Sənə qəhvə dəmləmişəm, yəqin daşdı - deyib, ocağa sarı qaçdı. Qəhvədanı götürüb, geri qayıtdı. Qəhvə qaynamamışdı, lap içməli idi.

Şahxəndan qəhvə dolu fincanı pəncərənin önündəki taxçanın üstünə qoydu:

- Dadaş, sən bala-bala iç, mən də süfrəni yığışdırıb, dəvəni yerbəyer eləyib gəlim...

Seyid Əli köpüyü yavaş-yavaş yatan qəhvəyə baxa-baxa nədənsə, gözünün ilk ovunu - Hüsniyyəni, onun bulaqdan səhənglə necə su daşıdığını, uzun, incə hörüklərinə necə lalə taxdığını, oğrun-oğrun necə güldüyünü xatırladı və bağrının başında xoş bir sızıltı duydu...

Elə bu vaxt Şahxəndan içəri girdi:

- Hə, dadaş, dəvən yatıb, yəni, gözünü yumub, amma çənəsi dəyirman daşı kimi işləyir, görünür,yoncanın dadı xoşuna gəlib...

Seyid Əli güldü:

-Şahxəndan, balası, mənim dəvəmlə işin olmasın, sən Şirvandan danış, Şirvandan.

-Dadaş, Şirvandan nə danışım ey, bizim bu İbrahim şah başını lap itirib...Bir gözü Təbrizdədir, bir gözü də Naxçıvanda...

Seyid Əli sağına-soluna baxıb dedi:

- Balası, bax, bunu sən deyirsən ha!

Hər ikisi qəşş eləyib güldü.

- Balası, sən nə danışırsan? Eşidən-bilən olsa, gülər. Adamın da iki ağası olar?

- Canın haqqı düz deyirsən. Bunu bütov Şamaxı bilir.

- Onda İbrahim şah hörmətdən düşər ki?

- Düşüb də...

- Belə şeyləri mənim dəvəm yaxşı bilir, yuxudan duranda soruşarıq. Amma deyim ki, İbrahim şah çox təhlükəli oyun oynayır, Miranşahın xəfiyyəsi gedib Təbrizdə deyəcək ki, İbrahim şah Qara Yusifə xərac göndərir, Qara Yusifin də xəfiyyəsi gedib Naxçıvanda deyəcək ki, bu həpənd oğlu həpənd Təbrizə xərac göndərir, yəni, İbrahim şah həm nala vurur, həm mıxa, axırda da öz əlinə. Səfeh işdi.

***(Ardı var)***

# Akademik Yaqub Mahmudovun "Seçilmiş əsərləri" Milli Kitabxanaya təqdim olunub

Yanvarın 30-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudovun 15 cildlik "Seçilmiş əsərləri" və "Yaqub Mahmudov. Biblioqrafiya"sı, eyni zamanda, Tarix İnstitutunun 2018-ci ildə nəşr etdirdiyi kitabların bütöv kolleksiyası Milli Kitabxanaya təqdim edilib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasiminə həsr olunmuş tədbir Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə reallaşıb.



Tədbiri Milli Kitabxananın direktoru professor Kərim Tahirov açaraq müasir Azərbaycan tarixşünaslığının görkəmli nümayəndəsi, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Yaqub Mahmudovun çox zəngin yaradıcılığını əks etdirən, uzun illərin bəhrəsi olan 15 cilddə nəşr edilən "Seçilmiş əsərləri"n tarix elminə böyük töhfə olduğunu, eyni zamanda, gələcək nəsillərin, gənc tarixçilərin, tədqiqatçıların istinadgahına çevriləcəyini söyləyib.

Professor çıxışında "Yaqub Mahmudov. Biblioqrafiya" kitabında alimin həyat və fəaliyyətindən bəhs edən ilk qələm təcrübəsindən başlayaraq 2018-ci ilə qədər işıq üzü görmüş elmi əsərləri - monoqrafiyaları, kitab, kitabça və dərslikləri, məqalə və çıxışları, müsahibələri və digər materialların əhatə edildiyini söyləyib. Qeyd edib ki, Yaqub Mahmudov Azərbaycan tarix elmində milli məfkurənin əsasını qoyaraq yeni bir məktəb yaradıb və bu məktəbin nümayəndələri milli ruhda Azərbaycan elminə və dövlətçiliyinə xidmət edən tədqiqatlar, araşdırmalar aparırlar.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxışında hər zaman tarix elminin taleyüklü məsələlərini araşdıran, elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti ilə nəsillərə örnək olan fədakar alimin, Yaqub Mahmudovun nəfis tərtibatda işıq üzü görmüş bu seçilmiş əsərlərinin tariximizlə bağlı həqiqətləri özündə əks etdirən bir toplu olduğunu söyləyib. O, 15 cildlik külliyyatın 1966-cı ildən başlamış 2017-ci il də daxil olmaqla böyük bir elmi-araşdırma dövrünü - qədim və orta əsrlər Azərbaycan tarixini, Azərbaycan diplomatiyasını, ölkəmizin tarixi əlaqələrini, müstəqillik tariximizi, ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini əks etdirən elmi araşdırmaların öz əksini tapdığını bildirib.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova çıxışında Yaqub Mahmudovun ictimaiyyətə təqdim olunan 2011-2017-ci illərdə nəşr olunmuş 15 cilddən ibarət "Seçilmiş əsərləri"nin Azərbaycan tarixində xüsusi yeri olduğunu, hər bir əsərində milli maraqlarımızın əks olunduğunu söyləyib.

Milli Məclisin deputatı, professor Fəzail İbrahimli Yaqub Mahmudovun milli dövlətçilik tariximizdə mühüm rol oynamış Ağqoyunlu və Səfəvi dövlətlərinin xarici siyasəti və diplomatik əlaqələri, Azərbaycan diplomatiyasının tarixi, xalqımızın etnik siyasi tarixi, dövlətçilik ənənələri və intibah mədəniyyəti, Azərbaycanın tarixi torpaqları və ayrılmaz hissəsi olan Qarabağ, Naxçıvan və İrəvanın etnik və siyasi tarixi, iqtisadi inkişaf mərhələləri, mədəniyyəti, Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti və bu siyasətin uğurlarını Azərbaycan dövlətçiliyinin tarixi fonunda araşdırdığını qeyd edib.

Milli Məclisin deputatı, professor Elman Nəsirli çıxışında Yaqub Mahmudovun müəllimlik fəaliyyətindən geniş söhbət açıb.

Bakı Dövlət Universitetinin kafedra müdiri professor Anar İsgəndərov Yaqub Mahmudovun yazdığı elmi əsərlərin onun ən böyük sərvəti olduğunu, dövr, zaman dəyişsə də hər birinin Azərbaycan tarixində sovet dönəmindən bugünə kimi öz aktuallığını qoruyub saxladığını söylədi.

Tədbirdə AMEA-nın Tarix İnstitutunun direktor müavinləri, professor Cəbi Bəhramov, tarix üzrə elmlər doktoru Tofiq Nəcəfli çıxış edərək görkəmli alimin geniş araşdırmalarından söhbət açdılar.

Sonda tədbir iştirakçılarına, Milli Kitabxananın kollektivinə minnətdarlığını bildirən akademik Yaqub Mahmudov çıxışında daim ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan tarixinə layiqli diqqət və qayğının göstərildiyini və Prezident İlham Əliyevin də bu işi uğurla davam etdirdiyini söyləyib, institutun 13 əməkdaşının dövlət mükafatına layiq görüldüyünü bildirib və bundan qürur hissi keçirdiyini vurğulayıb.

# Dünyanın ən yaxşı 500 universiteti

UNEC ali təhsil müəssisələrinin beynəlxalq reytinq cədvəllərində öz mövqeyini yüksəltmək istiqamətində məqsədyönlü addımlar atır.

UNEC 2015-2016-cı illərdə dünyanın ali təhsil müəssisələrinin ən nüfuzlu reytinqlərindən olan "The Ranking Web" ("Webometrics") siyahısına görə, Azərbaycan universitetləri arasında iki il ardıcıl olaraq liderliyini qoruyub. Webometrics göstəricilərinə əsasən, UNEC ən böyük çəki əmsalına malik olan təsir (Impact) və yüksək keyfiyyət (Excellence) meyarları üzrə Azərbaycan ali təhsil müəssisələri arasında yeganə universitet olub.

UNEC Böyük Britaniyanın QS agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə reytinq cədvəlində 2016-2017-ci illərdə regionun 4-cü ən yaxşı iqtisadyönümlü universiteti olub.

2017-2018-ci illərdə daha bir uğura imza atan UNEC, dünya universitetlərinin veb populyarlığını müəyyən edən "uniRank" reytinqinin nəticələrinə görə, ölkə birincisi olub. Reytinq qiymətləndirməsinə əsasən, UNEC internet resursları üzrə ölkənin ən yaxşı və populyar ali məktəbi seçilib.

UNEC nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artmasına və dünya elm məkanına uğurla inteqrasiya etdiyinə görə "Clarivate Analytics" şirkəti tərəfindən Web Science üzrə ən mütərəqqi universitet seçilərək, "Web of Science Awards - 2018" və "Most progressive universities in Web of Science for the last 3 years" mükafatlarını qazanıb.




Dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunması istiqamətində uğurla addımlayan UNEC dünyanın "Ekoloji cəhətdən ən təmiz" (Ul Green Metric World University) universitetlərinin illik reytinq cədvəlində 2017 və 2018-ci illər üzrə ardıcıl olaraq "Yaşıl universitet" statusunu əldə edib.

Beynəlxalq reytinqlərdə mövqeyini gücləndirən UNEC yeni uğurlara da imza atıb. Belə ki, QS agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə 2018-ci ilin iyun və 2019-cu ilin yanvar ayının reytinq sıralamasında UNEC "işəgötürənlərin reputasiyası" meyarı üzrə Azərbaycanın ən yaxşı universiteti oldu.

"Webometrics" reytinqinin 2019-cu ilin yanvar ayında açıqlanan siyahısında isə UNEC "Akademik istinadlarına görə ən yaxşı universitetlər" (Transparent Ranking: Top Universities by Google Scholar Citations) meyarı üzrə ölkənin lider universiteti statusunu qazandı.

UNEC-in yüksək beynəlxalq reytinqli universitetə çevrilmək istiqamətində strateji məqsəd, hədəf və fəaliyyətləri "UNEC-100" İnkişaf strategiyasında da müəyyən olunub. UNEC nüfuzlu reytinq təşkilatları ilə əməkdaşlığı daha da artırmaqla və reytinq təşkilatlarının tələblərini universitet menecmentinin bütün pillələrində daim nəzərə almaqla 90 yaşında dünyanın ən yaxşı 1000, 100 yaşında isə ən yaxşı 500 universitetindən biri olmağı hədəfləyib.

***"Azərbaycan"***

# 31 elektrik stansiyası, 15 min kilometr yol, 3272 məktəb binası, 4 böyük su anbarı...

## Bunlar son 15 ildə regional inkişaf proqramları çərçivəsində bölgələrdə görülən işlərin kiçik statistikasıdır

***Əvvəli 1-ci səh.***

Məsələn, son 15 il ərzində Azərbaycanda 2 milyon yeni iş yeri yaradılmışdır. Həmin iş yerlərinin çox hissəsi bölgələrin payına düşür. Bunun sayəsində bölgələrdən əhalinin iş üçün paytaxta axınının qarşısı alınmışdır. Bu işdə kənd təsərrüfatına yatırılan sərmayə və yeni açılan müəssisələr mühüm rol oynamışdır. Görülən tədbirlər nəticəsində həmçinin kənd təsərrüfatında məhsul istehsalı artmışdır. Xüsusən pambıqçılığın, tütünçülüyün, baramaçılığın, fındıqçılığın, üzümçülüyün, çayçılığın, çəltikçiliyin yenidən dirçəldilməsi regionlarda yaşayan əhalinin sosial rifahının yaxşılaşmasına və məşğulluğun təmin edilməsinə müsbət təsir göstərmişdir. Son dövrlər bu sahələrin dirçəldilməsi sayəsində regionlarda işsizliyin sayı kəskin azalmışdır.

Götürək pambıqçılığı. 2015-ci ildə ölkə üzrə cəmi 35 min ton pambıq tədarük edilmişdisə, keçən il bu rəqəm 223 min tona çatmışdır. Həmin sahənin bərpasından sonra 190 min nəfər pambıqçılıqla məşğul olmağa başlamışdır. Yəni 190 min nəfərin işlə təminatı bu qədər ailənin sosial rifahını yaxşılaşdırmışdır.

Tütünçülüyün bərpası da regionların inkişafına və əhalinin məşğulluğuna müsbət təsir göstərir. 2015-ci ildə ölkə üzrə cəmi üç rayonda tütün əkilirdi və bu sahə sıradan çıxmaq üzrə idi. Həmin dövr üç rayonda 3400 ton, keçən il isə 13 rayonda 6200 ton tütün yarpağı yığılmışdır. Tütünçülüyün dirçəldilməsi üçün dövlət bu sahəni qurutma kameraları, tədarüklə bağlı texnika və s. ilə təmin edir. Ötən üç il ərzində tütünçülükdə 9500 nəfər işlə təmin olunmuşdur.

Belə nailiyyətlərin qazanıldığı sahələrdən biri də baramaçılıqdır. Ölkəmizdə baramaçılıq pambıqçılıq və tütünçülükdən daha geniş coğrafiyanı əhatə edir. Demək olar ki, bu gün ölkənin əksər rayonlarında barama yetişdirilir. Dövlət baramaçılığı inkişaf etdirmək üçün təkcə keçən il fermerlərə 2 milyon 600 min tut tingi vermiş və bu, nəticəsiz qalmamışdır. 2015-ci ildə cəmi bir rayonda 230 kiloqram barama tədarük olunduğu halda, ötən il 38 rayonda 513 ton barama tədarük edilmişdir. Cari ildə isə bu rəqəmin 800 tona çatdırılması planlaşdırılır.

Son dövrlər fındıqçılıqda da xeyli irəliləyiş var. 2016-cı ildə ölkə üzrə 40 min hektar fındıq bağı olmuşdur. Bu gün həmin rəqəm 75 min hektara çatıb. Cari ildə isə əlavə 9 min hektar fındıq bağı salınması nəzərdə tutulub. Onu da qeyd edək ki, bu məhsula tələbat istər ölkə daxilində, istərsə də dünya bazarında yüksəkdir. Təsadüfi deyil ki, ölkə üzrə aqrar məhsullar içərisində pomidordan sonra ən çox valyuta fındıq satışından əldə olunur. Onu da bildirək ki, hazırda bu sektorda 20 min nəfər işlə təmin edilib.

Məlumdur ki, hər bir ölkənin, o cümlədən Azərbaycanın ərzaq təhlükəsizliyində aqrar sektor qarant yolunu oynayır. Ölkəmizdə də kənd təsərrüfatında yetişdirilən məhsul ilk növbədə daxili tələbatımızın ödənilməsinə sərf olunur. Lakin aqrar sektorda aparılan islahatlar, göstərilən dövlət dəstəyi sayəsində məhsul istehsalı ildən-ilə artır və bununla ixrac imkanımız da genişlənir. Son illər qeyri-neft məhsullarının ixracındakı artımda kənd təsərrüfatı məhsullarının çəkisinin yüksək olması da bunu təsdiqləyir.

Regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarında sosial və iqtisadi layihələr paralel şəkildə icra olunmuşdur. Bunun nəticəsidir ki, son 15 ildə regionlarda 3272 məktəb tikilmiş və təmir edilmiş, 38 şəhərdə içməli su layihələrinin icrası başa çatdırılmışdır. Bu dövrdə həmçinin 15 min kilometr avtomobil yolu çəkilmişdir və onun çox hissəsi regionları əhatə edir. Xüsusilə kəndlərarası avtomobil yollarının çəkilməsi və təmiri bölgələrin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bunlardan əlavə, həmin illər ərzində 31 yeni elektrik stansiyası inşa olunmuş, 2500 meqavatlıq yeni güc yaradılmış, 4 böyük su anbarı tikilmiş, ölkə üzrə təbii qazlaşma 95 faizə çatdırılmışdır.

Ölkədə sahibkarlığın inkişafına dövlət dəstəyi bölgələrdə daha çox hiss olunur. Bunun sayəsində regionlarda çoxsaylı müəssisələr yaranmış, qeyri-neft sənaye məhsullarının istehsalı artmış, xidmət sektoru xeyli dərəcədə inkişaf etmişdir. 15 ildə ümumilikdə sahibkarlara 2 milyard manatdan çox güzəştli kredit verilmişdir və bu hesaba bölgələrdə 100 mindən çox müəssisə fəaliyyətə başlamışdır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# "Azercell"in Mobil Göz Klinikası Ağdama səfər edib

Valideyn himayəsindən məhrum olan uşaqlarda, eləcə də ahıllar və aztəminatlı ailələrdə göz xəstəliklərinin müayinəsinin təşkili və profilaktikasının aparılması məqsədilə 2011-ci ildə "Azercell Telekom" MMC tərəfindən yaradılan "Mobil Göz Klinikası" bu ilin ilk səfərini Ağdam rayonu Quzanlı qəsəbəsində yerləşən 18 saylı tam orta köçkün məktəbinə edib. Yanvar ayında təşkil olunan səfərdə 38 nəfər uşaq pulsuz göz müayinəsindən keçib. Ehtiyacı olan uşaqlara müalicələr təyin olunub, eləcə də eynəklər paylanılıb.



Qeyd edək ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" ictimai birliyi tərəfindən həyata keçirilir. Fəaliyyətinin 8 ili ərzində layihə çərçivəsində "Mobil Göz Klinikası" Bakı şəhərindəki bir çox internat məktəblərinə, uşaq evlərinə səfər edib. Eyni zamanda klinikanın həkimləri bölgələrə də üz tutub, müalicəyə ehtiyacı olan şəxslərə yardım ediblər. Təkcə ötən il 33 səfər çərçivəsində 1368 nəfər müayinədən keçib ki, bunun da 975 nəfərini uşaqlar təşkil etmişdir.

***"Azərbaycan"***


## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Katriclərin satın alınması məqsədi ilə

### *kotirovka sorğusuna dair elan*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr. 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14.) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 04 fevral 2019-cu il saat 17:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka sorğusunun təklifləri Bakı şəhəri Bülbül pr. 27 nömrəli ünvanda, Palatanın inzibati binasında 05 fevral 2019-cu il saat 11:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

✦ Təqdim edilməli sənədlər- Malgöndərənin (podratçının) hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri təsdiq edən sənədlər.

✦ Mallar müqavilə imzalanandan sonra 3 iş günü ərzində edilmiş sifarişə uyğun göndərilməlidir;

✦ Mallar yeni (istifadə edilməmiş) olmalıdır;

✦ Mallara keyfiyyətinə 12 ay zəmanət verilməlidir.



## "Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan mal, material və avadanlıqların satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 9 (doqquz ) LOT üzrə keçirilir:
1 LOT: Müxtəlif növ nasosların və onların ehtiyat hissələrinin satın alınması.
2 LOT: Boyalar, lak və boya məmulatlarının satın alınması.
3 LOT: Müxtəlif növ metal məmulatlarının satın alınması.
4 LOT: Müxtəlif növ taxta və taxta məmulatlarının satın alınması.
5 LOT: Müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınması.
6 LOT: Müxtəlif növ elektrik mallarının satın alınması.
7 LOT: Müxtəlif növ işçi alətlərin satın alınması.
8 LOT: Müxtəlif növ işçi alətlər üçün sərfiyyat materiallarının satın alınması.
9 LOT: Kompüter avadanlıqları və mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan, (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

| | |
|---|---|
| İştirak haqqı | 1 LOT üzrə - 1000 manat |
| | 2 LOT üzrə - 400 manat |
| | 3 LOT üzrə - 1000 manat |
| | 4 LOT üzrə - 500 manat |
| | 5 LOT üzrə - 500 manat |
| | 6 LOT üzrə - 1500 manat |
| | 7 LOT üzrə - 500 manat |
| | 8 LOT üzrə - 500 manat |
| | 9 LOT üzrə - 1000 manat |

Hesab: AZ98AZRT38050019440010268002
VÖEN:1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H: AZ02NABZ01350100000000022944
SWIFT: AZRTAZ22

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barəsində bank sənədi;
- tender təklifi (zərflərin açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 90 bank günü müddətində qüvvədə olmalıdır);
- iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olunmaqla) 05 mart 2019-ci il tarixinə, saat 18:00-a qədər, tender təklifi və bank zəmanəti möhürlənmiş, ikiqat zərfdə 14 mart 2019-ci il tarixinə, saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 mart 2019-ci il saat 15:00-da "Bakı Metropoliteni" QSC-nin akt zalinda, Tender komissiyasının iclasında, Baki ş., M.Rəfili küç, 16 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

*Tender komissiyası*



## "Azərişıq" ASC Mobil Laboratoriyanın satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1

Mobil Laboratoriyanın satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Fərruh Heybətov (telefon: 440-39-93, daxili (70-06))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 mart 2019-cu il tarixdə saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

*Təkrar*

# “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin təminatı üçün

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT 1.** Ödəmə terminallarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 72 ünvanında yerləşən “Azərpoçt” MMC-dən (əlaqələndirici şəxs İsmayılov, Oktay telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 200 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**“Azərpoçt” MMC**
**Kod: 690001**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı:**
**AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün ərizə;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **20 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **01 mart 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **04 mart 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bakı Turizm İnformasiya Mərkəzi 2019-cu ildə reklam çap materialların, disklərin alınması və tədbirin keçirilməsi ilə əlaqədar

## *açıq tender elan edir*

**Tender 2 LOT üzrə aparılır:**
**LOT-1 Reklam çap materialların hazırlanması və satın alınması**
**LOT- 2 Tədbirlərin keçirilməsi**

Tender iştirakçılarına təklif edilirki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetirilməlidir.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları maliyyəvə texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT-lar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri Ü.Hacıbəyli küçəsi 70 ünvanda yerləşən Tender komissiyasından ala bilərlər.

(Əlaqələndirici şəxs: Həsənova Aybəniz. Telefon (012) 498-12-44 əlavə 18)

**LOT-1 - 150 ( bir yüzəlli) manat**
**LOT-2 - 150 (bir yüzəlli) manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Bakı Turizm İnformasiya Mərkəzi**
**Hesab N: AZ08CTRE00000000000002178306**
**VÖEN: 1700675651**
**Adı: Dövlət Xəzinadarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ03NABZ01360100000003003944**
**S.W.I.F.T.BİK CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi;*
- *iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
- *işlərin yerinə yetirilməsi üçün potensial imkanları haqqında məlumat;*
- *vergi və digər borcların olmaması barədə arayış.*

Qeyd olunmuş ilkin sənədlər 06 mart 2019-cu il tarixədək təqdim olunmalıdır.

Tender təklifi isə möhürlənmiş ikiqat zərfdə 15 mart 2019-cu il tarixdə 17:00-dək təqdim olmalıdır.

Təklif zərfləri 18 mart 2019-cu il tarixdə 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Mərkəzi Bankı

## *kotirovka sorğuları elan edir*

**1. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün dəftərxana və ofis ləvazimatlarının satın alınması.**

**2. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün printer və surətçıxarma aparatı kartriclərinin satın alınması.**

**3. Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binalarında kovrolit örtüyünün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsinə dair xidmətin satın alınması.**

İştirak haqqı 1-ci və 2-ci məsələ üzrə 40 manat, 3-cü məsələ üzrə isə 20 manat təşkil edir. İştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**H/h: AZ42NABZ01452700000000009944**
**Kod: 501004**
**SWİFT: BIKNABZAZ2C**

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu iştirak haqqının ödənilməsini təsdiq edən sənədlər təqdim edilməklə əlaqələndirici şəxslərdən əldə etmək olar.

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 12 fevral 2019-cu il saat 18.00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 13 fevral 2019-cu il saat 10.00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları ilə bağlı əlavə məlumat almaq üçün aşağıda qeyd olunmuş əlaqələndirici şəxslərlə əlaqə saxlaya bilərsiniz:

**Elvin Şirdanov, telefon: 493 11 22 (daxili 428)**
**Elnur Musayev, telefon: 493 11 22 (daxili 490).**

***Tender komissiyası***

# Sumqayıt Şəhər İcra Hakimiyyəti

2019-cu ildə (221100) - “Dəftərxana və təsərrüfat xərcləri” maddəsi üzrə dəftərxana və təsərrüfat ləvazimatları, (221310) - “İdarənin xərcləri” maddəsi üzrə mal-materiallar, (225200) - “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər alınması” maddəsi üzrə paltar və geyimlərin, yataq ləvazimatları, (225411) - “İnventarın alınması” maddəsi üzrə bütün növ mebellər və (311220) - “Digər maşın və avadanlıqlar” maddəsi üzrə istehsal və qeyri istehsal avadanlıqlarının satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

**Tender 5 (beş) LOT üzrə keçiriləcəkdir.**

LOT 1 - “Dəftərxana və təsərrüfat xərcləri” maddəsi üzrə dəftərxana və təsərrüfat ləvazimatlarının alınması

LOT 2 - “İdarənin xərcləri” maddəsi üzrə mal-materialların alınması

LOT 3 - “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər alınması” maddəsi üzrə paltar və geyimlərin, yataq ləvazimatlarının alınması

LOT 4 - “İnventarın alınması” maddəsi üzrə bütün növ mebellərin alınması

LOT 5 - “Digər maşın və avadanlıqlar” maddəsi üzrə istehsal və qeyri-istehsal avadanlıqlarının alınması

Tender iştirakçılarına təklif olunur ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan LOT-lar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübəsi, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər birinci, ikinci və beşinci LOT-lar üçün 100 (bir yüz) manat, üçüncü və dördüncü LOT-lar üçün 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Əhmədov Rəhimdil Qılınc oğlu, telefon: (018) 655-14-48.

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu: 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 05 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə 14 mart 2019-cu il saat 17:00-a qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 mart 2019-cu il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Azərişıq” ASC Abşeron rayonu 1 nömrəli Hövsan Zeytunçuluq sovxozunun ərazisində yerləşən bağların suvarma nasoslarının və Biləsuvar, Ucar rayonlarında yerləşən aqropakların xarici elektrik təchizatı işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

**Tender 3 (üç) LOT üzrə keçirilir:**

**LOT-1** Abşeron rayonu 1 nömrəli Hövsan Zeytunçuluq sovxozunun ərazisində yerləşən bağların suvarma nasoslarının elektrik təchizatı işlərinin satın alınması - 400 manat

**LOT-2** Biləsuvar rayonunun 8542 ha ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması - 400 manat

**LOT-3** Ucar rayonunun Şilyan kəndi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 mart 2019-cu il saat 16:00-a Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 mart 2019-cu il tarixdə saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC xarici valyutanın satışı ilə bağlı konvertasiya xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan şirkətlər (+994 12) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.02.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

# Ukrayna vətəndaşının adı XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Ukrayna vətəndaşı Konstantin Andriyuk Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə hörmət etdiyini bildirən K.Andriyuk gələcəkdə Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərdən çəkinəcəyini vurğulayıb. Eyni zamanda, o, gələcəkdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektorluğu Karyera, praktika və məzunlarla əlaqə mərkəzinin müdiri Adil Xasayevə qardaşı

**MAYIL İMRAN OĞLU XASAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8286
Sifariş 315
Qiyməti 40 qəpik